AZERBAIJAN CASPIAN SHIPPING CO. 1858
AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

9 dekabr 2016-cı il № 81-84 (9087) Qiymәti 50 qәpik

## BU SAYIMIZDA


**12 dekabr ümummilli liderin anım günüdür**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DÜHASINI, UCALIĞINI, BÖYÜKLÜYÜNÜ HƏMİŞƏ XATIRLAYACAĞIQ**



*Tarixdə elə şəxsiyyətlər yetişib ki, onlara nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətində olduqca böyük missiyanı həyata keçirmək səadəti nəsib olub.*

Səh. 2

**AZƏRBAYCANIN DƏNİZ NƏQLİYYATI SİSTEMİ AVRASİYA MƏKANININ ƏN MÜHÜM NƏQLİYYAT-TRANZİT QOVŞAQLARINDAN BİRİNƏ ÇEVRİLİB**

**Azərbaycan tarixən qədim İpək yolunun keçdiyi və bir-birinə uzaq məsafədə yerləşən dövlətləri ən qısa yolla birləşdirən, ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkan olub. Ölkəmizin bu sahədəki tarixi rolu indi - qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində daha da artaraq strateji əhəmiyyət kəsb edir. Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilən Azərbaycan həm də bu sahədə yeni təşəbbüslərin müəllifidir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan respublikamız müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.**

Səh. 3

**BAKIDA "STRATEJİ TƏRƏFDAŞLIQ 1520: DÜNYANIN DÖRD TƏRƏFİNİ BİRLƏŞDİRƏN - XƏZƏR REGİONU" MÖVZUSUNDA BEYNƏLXALQ BİZNES FORUM KEÇİRİLİB**



***Biznes forumda enli dəmir yoluna malik ölkələrin milli dəmiryol şirkətlərinin, aparıcı nəqliyyat, logistika və maşınqayırma müəssisələrinin, Azərbaycanın və Rusiyanın əlaqədar dövlət idarəetmə orqanlarının rəhbərləri iştirak ediblər.***

Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov biznes forumda çıxış edərək, iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev adından salamlayıb, onlara uğurlar və rifah arzu edib.

Səh. 4

**AUDİT YOXLAMASINA HAZIRLIQ İŞLƏRİ APARILIR**



**Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlərin audit sxeminə (IMSAS) əsasən keçirilməsi nəzərdə tutulan audit yoxlamasına hazırlıq işlərinin aparılması məqsədilə görüş keçirilib.**

Səh. 5

**"AL JAZEERA" TELEKANALI BAKI LİMANI HAQQINDA VİDEOMATERİAL HAZIRLAYIB**

***"Əl Cəzirə" (Al Jazeera Arabic) telekanalının hazırladığı videomaterialda bildirilir ki, Azərbaycanda həyata keçirilən böyük investisiya layihələri bu ölkədə neft-qaz sektoruna alternativ layihələrdir.***

Kanalın hazırladığı videomaterialda Ələt qəsəbəsində yaradılan yeni Bakı Limanı və onun ətrafında yerləşəcək Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zona barədə məlumat verən limanın baş direktorunun müşaviri Zaur Həsənov bildirib ki, Azərbaycanın Xəzər dənizi sahilində, dəmir yollarının və su yollarının kəsişdiyi yerdə yerləşməsi, onu Asiya və Avropanı birləşdirən bir mərkəzə çevirir.

Səh. 7

**KARATE ÜZRƏ RESPUBLİKA ÇEMPİONATININ QALİBLƏRİ MÜƏYYƏNLƏŞİB**



***Yeniyetmə və gənclər arasında 17-ci, böyüklərin isə karate üzrə 24-cü respublika çempionatının qalibləri məlum olub.***

"Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilmiş yarışda paytaxt və müxtəlif regionlardan 41 klubu təmsil edən 430 idmançı iştirak edib.

Səh. 8


# "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC VƏ "QAZAXISTAN DƏMİR YOLLARI" SC ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANIB















***Dekabrın 6-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev "Qazaxıstan Dəmir Yolları" SC-nin dəvəti ilə "Sənayeləşdirmə Günü" tədbirlərində iştirak etmək üçün Astanada səfərdə olub.***

"Qazaxıstan Dəmir Yolları" SC-nin sədri Kanat Alpısbayevlə görüş zamanı mühüm tədbirə dəvətinə görə öz təşəkkürünü bildirən Rauf Vəliyev son dövrlər Azərbaycanda dənizçilik sahəsində aparılan köklü islahatlar, bu sahəyə dövlət dəstəyi, donanmanın yenilənməsi istiqamətində görülən işlər və s. məsələlərdən ətraflı söhbət açıb. Bildirib ki, "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizi arasında ən qısa yolun ölkələrimizin ərazisindən keçməsi hər iki ölkəyə mövcud nəqliyyat potensialından daha səmərəli istifadəyə imkan verir. İstər Azərbaycanda, istərsə də Qazaxıstanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, tranzit potensialının artırılması üçün çox böyük işlər həyata keçirilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yaxınlarda inşası başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu xətti, o cümlədən Qazaxıstanda dəmir yolları və limanların genişləndirilməsi bu istiqamətdə əməkdaşlığın inkişafı və birgə layihələrin icrası üçün geniş imkanlar yaradır.

Azərbaycanın Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində əməkdaşlıq məsələləri də diqqət mərkəzində olub. Öz növbəsində "Qazaxıstan Dəmir Yolları" SC-nin sədri Kanat Alpısbayev də Gəmiçiliklə əməkdaşlıqdan məmnun olduğunu və bu əməkdaşlığın eyni zamanda nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsinə zəmin yaratdığını bildirib.

Danışıqlardan sonra Rauf Vəliyev və Kanat Alpısbayev iki qurum arasında strateji əməkdaşlıq və birgə müəssisənin yaradılmasına dair müqavilə imzalayıblar. Strateji əməkdaşlıq haqqında müqaviləyə əsasən tərəflər nəqliyyat sahəsində cari və gələcəkdə reallaşdırılması nəzərdə tutulan layihələrə investisiyaların cəlb edilməsi, Azərbaycan və Qazaxıstan limanlarından yükdaşımaların həcminin artırılması, müxtəlif istiqamətlər üzrə daşımalara dair iş planının hazırlanması, hər iki qurumun mövcud infrastruktur, xüsusilə də gəmiqayırma, gəmi təmiri, yükaşırma və digər imkanlarından istifadə edilməsi, logistika və gəmilərə agent xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığı inkişaf etdirmək üzrə razılığa gəliblər.

Qazaxıstana səfəri çərçivəsində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev bu ölkənin baş nazirinin birinci müavini Askar Maminlə də görüşüb. Görüş zamanı iki ölkə arasında birgə həyata keçirilən nəqliyyat layihələrindən danışılıb. Bildirilib ki, hər iki ölkə prezidentinin müxtəlif sahələrdə həyata keçirdiyi uğurlu əməkdaşlıq siyasəti münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edir. Tərəflər yaxın gələcəkdə reallaşması nəzərdə tutulan birgə nəqliyyat layihələri, bu layihələrin hər iki ölkənin iqtisadiyyatına verəcəyi töhfələr haqqında da müzakirələr aparıblar.

Sonra Gəmiçiliyin nümayəndə heyəti Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev və digər dövlət rəsmilərinin iştirakı ilə keçirilən "Sənayeləşdirmə Günü" tədbirində iştirak edib. Telekörpü vasitəsilə tədbir iştirakçılarına Qazaxıstanda başa çatdırılan müxtəlif infrastruktur layihələri, o cümlədən "Almatı - Şu istiqamətində ikinci dəmiryol xətti" və "Kurık bərə kompleksi" təqdim edilib və istismara verilib.

Kurık limanında istismara verilən yeni bərə kompleksindən yüklərin vaqonlardan boşaldılmadan birbaşa bərələrə yüklənib Xəzəryanı ölkələrə, ordan isə Avropaya daşınması mümkün olacaq. Ümumi sahəsi 40 hektar olan bərə kompleksi ildə 4 milyon ton yükün aşırılmasına imkan yaradacaq. Kurık limanının əlverişli coğrafi mövqeyi, eyni zamanda limanda suyun dərinliyinin böyük tutumlu gəmilərin yan alması üçün münasib olması gələcəkdə bu limandan ən müxtəlif təyinatlı yüklərin yola salınması və qəbuluna imkan verir. Bu kompleks Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə artan konteyner həcmlərinin qarşılanmasında mühüm rol oynayacaq. Buradan Azərbaycan istiqamətində səfərlər zamanı mövcud və yeni bərələrdən istifadə olunacaq.

Qeyd edək ki, bu günə kimi Qazaxıstan ərazisindən tranzit yükdaşımaları yalnız Aktau limanından həyata keçirilirdi. Aktau limanının yük aşırma imkanlarının məhdud olması və eyni zamanda limanın coğrafi yerləşməsi, onun küləklərin birbaşa təsirinə məruz qalması yükdaşımalara mənfi təsir göstərirdi. Yeni Kurık bərə kompleksinin istismara verilməsi isə Xəzər dənizində yükdaşımanın həcminin artmasına səbəb olacaq. Kurık kompleksinin Bakı Limanına daha yaxın məsafədə yerləşməsi yüklərin daha tez zaman kəsiyində ünvana çatmasına imkan yaradacaq.

Kurık limanından ilk yola salınan gəmilərdən biri Gəmiçiliyin "Şahdağ" gəmi-bərəsi olub. Əsaslı təmirdən bu yaxınlarda çıxan "Şahdağ" gəmi-bərəsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda dəmir yolu vaqonları və sərnişin daşıyacaq.

Xatırladaq ki, Gəmiçilik Xəzərdə yeganə bərə operatoru kimi fəaliyyət göstərir və hazırda 13 gəmi-bərəsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımalara cəlb olunub. Rəqabətədavamlı xidmət göstərmək üçün istənilən gəmiçilik şirkəti kimi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi də donanmasında gəmi-bərələrinin sayını artırmağa xüsusi önəm verir. Bu məqsədlə Gəmiçilik 2016-cı ilin oktyabr ayında daha 2 unikal Ro-Pax tipli gəmi-bərənin tikintisini Bakı Gəmiqayırma Zavodunda sifariş verib. Bununla da "Şərq-Qərb" və əks istiqamətdə artması gözlənilən yüklərin daşınması heç bir maneə olmadan həyata keçiriləcək. Bərələrin sayının artırılması həm də Azərbaycanın regionda nəqliyyat-loqistika qovşağına çevrilməsi, ölkənin tranzit potensialının gücləndirilməsi üçün də çox böyük əhəmiyyətə malikdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

**№ 490** **QƏRAR** **Bakı şəhəri, 30 noyabr 2016-cı il**

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 827 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamının 2.1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321; 2016, № 3, maddə 584, № 8, maddə 1428) aşağıdakı dəyişikliklər edilsin:



1. Həmin qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi" üzrə:

1.1. 1.4-cü, 4.8-ci, 8.5-ci, 8.6-cı, 11.1-ci, 11.2-ci bəndlərdə, 3.2.8-ci, 3.2.27-ci, 6.5.11-ci, 6.5.12-ci, 6.5.15-ci, 6.5.16-cı (hər iki halda), 7.1.8-ci, 7.1.9-cu, 7.1.16-cı, 7.1.19-cu, 7.1.20-ci, 9.3.1-ci, 11.2.2-ci, 11.2.3-cü, 11.2.4-cü, 11.2.5-ci, 11.2.6-cı yarımbəndlərdə və 11-ci hissənin adında ismin müvafiq hallarında "törəmə müəssisələri" sözləri ismin müvafiq hallarında "törəmə hüquqi şəxsləri" sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.4. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin yaradılması və ləğvi, törəmə hüquqi şəxslərinin yaradılması, yenidən təşkili və ləğvi Cəmiyyət tərəfindən həyata keçirilir.";

1.3. aşağıdakı məzmunda 3.2.6-1-ci yarımbənd əlavə edilsin:

"3.2.6-1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 827 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququnun, o cümlədən həmin əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi, Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması, qiymətləndirilməsi, təyinatının dəyişdirilməsi səlahiyyətlərinin həyata keçirilməsi;";

1.4. 3.2.9-cu yarımbəndə "cihazlarının" sözündən sonra "idxalı, habelə" sözləri əlavə edilsin;

1.5. aşağıdakı məzmunda 3.3-cü bənd əlavə edilsin:

"3.3. Cəmiyyətin və onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətləri üçün lisenziya və icazə alınması tələb olunduqda, həmin lisenziya və icazə alınmış hesab edilir və yenidən alınması tələb olunmur.";

1.6. aşağıdakı məzmunda 6.4-1-ci bənd əlavə edilsin:

"6.4-1. Cəmiyyətin sədrinin müavinləri, eyni zamanda Cəmiyyətin müvafiq idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin (daxili audit istisna olmaqla) rəhbəri vəzifəsini tuta bilərlər.";

1.7. 6.5.15-ci yarımbənddə "qanunvericiliyə uyğun olaraq" sözləri "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 827 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin;

1.8. 6.5.17-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.5.17. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 827 nömrəli Fərmanı ilə müəyyən olunmuş qaydada Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin yaradılması və ləğvi, törəmə hüquqi şəxslərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında qərarlar qəbul edir.";

1.9. 11.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Cəmiyyətin idarə, filial və nümayəndəlikləri, habelə törəmə hüquqi şəxsləri Cəmiyyətin Nizamnaməsinə əməl etməli, öz fəaliyyəti barədə Cəmiyyətə hesabat verməli, Cəmiyyət tərəfindən təsdiq edilmiş iş proqramlarının, gəlir və xərclər smetasının icrasını təmin etməli, Cəmiyyət tərəfindən keçirilən tədbirlərdə və Cəmiyyətin qarşısında duran vəzifələrin həllində iştirak etməli, onlara həvalə edilmiş digər vəzifələri yerinə yetirməlidirlər.";

1.10. 11.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"11.2.1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 827 nömrəli Fərmanına uyğun olaraq, Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin balansında olan əmlaka münasibətdə sərəncam vermək, o cümlədən həmin əmlakı balansdan balansa, icarəyə və istifadəyə vermək, Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoymaq, qiymətləndirmək, təyinatını dəyişdirmək;";

1.11. 11.2.2-ci yarımbəndə "formalaşdırmaq" sözündən sonra "və törəmə hüquqi şəxslərinə münasibətdə ümumi yığıncağa aid digər səlahiyyətləri həyata keçirmək" sözləri əlavə edilsin.

2. Həmin qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin strukturu" üzrə:

2.1. "II. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin törəmə müəssisələri" bölməsi üzrə:

2.1.1. adında "törəmə müəssisələri" sözləri "törəmə hüquqi şəxsləri" sözləri ilə əvəz edilsin;

2.1.2. 2-ci hissə ləğv edilsin;

2.1.3. 3-cü hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4-cü, 5-ci və 6-cı hissələr əlavə edilsin:

"4. "ACSC logistics" Məhdud Məsuliyyətli Cəmiyyəti;

5. "Dənizçi" mənzil-tikinti kooperativi;

6. Xarici törəmə hüquqi şəxslər və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin iştirakçı olduğu birgə müəssisələr.";

2.2. "III. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan hüquqi şəxs statusuna malik olmayan təşkilatlar (idarələr)" bölməsinin 6-cı hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7-ci və 8-ci hissələr əlavə edilsin:

"7. "Zığ" Quru Yük Limanı;

8. "İnflot" Dəniz Agentliyi.";

2.3. "IV. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin ayrıca bölmələri (filial və nümayəndəlikləri)" bölməsinin sonunda iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və həmin bölmənin 1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı hissələri ləğv edilsin.

***Artur Rasi-zadə,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## 12 dekabr ümummilli liderin anım günüdür

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DÜHASINI, UCALIĞINI, BÖYÜKLÜYÜNÜ HƏMİŞƏ XATIRLAYACAĞIQ

***Tarixdə elə şəxsiyyətlər yetişib ki, onlara nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətində olduqca böyük missiyanı həyata keçirmək səadəti nəsib olub. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə tarixi şəxsiyyət, dünya siyasətinin mahir bilicisi idi. Azərbaycanın müasir tarixinin 34 illik bir mərhələsi, eləcə də müstəqil dövlətimizin dinamik inkişafı və dünyaya inteqrasiya prosesi onun adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərimiz Azərbaycan tarixində yeni parlaq səhifə açan nadir şəxsiyyət olmuşdur. Bu dahi, müdrik insan xalqımızın əsrlərin sınağından çıxmış özünəməxsus milli xüsusiyyətləri ilə yanaşı, bəşəri düşüncələrin daşıyıcısı idi. Əsası budur ki, sivilizasiyaların, mədəniyyətlərin, qitələrin qovuşuğunda yerləşən Azərbaycan xalqının zəngin mənəvi-mədəni irsini yaşatdı və dünyada təbliğinə nail oldu. Bəşər tarixi belə şəxsiyyətləri nadir hallarda yetişdirir.***

Ümummilli liderimizə xas olan digər nadir keyfiyyət onun bir-birinə əks qütbdə dayanan müxtəlif ictimai-siyasi formasiyalarda ən yüksək idarəçilik üsuluna üstünlük verməsi idi. Heydər Əliyev fenomeninə, onun tarixi xidmətlərinə, xilaskarlıq və quruculuq missiyasına müasir dünyanın görkəmli dövlət xadimləri, siyasətçiləri çox yüksək qiymət veriblər. Azərbaycanın 34 ilə yaxın bir tarixi dövrü yaddaşlarda məhz Heydər Əliyev epoxası, böyük quruculuq illəri kimi qalıb.

İrimiqyaslı qlobal siyasi dəyişikliklərlə müşayiət olunan tarixi dönəmlərdə xalqın mənafeyinə uyğun iradə nümayiş etdirmək iqtidarında olan şəxsiyyətlərə daha böyük ehtiyac duyulur. Müstəqil dövlətimizin timsalında ötən illəri təhlil edərkən bir daha əminliklə söyləmək olar ki, həqiqətən də, tarixin millətə verdiyi şansı yalnız görkəmli tarixi şəxsiyyətlərin iştirakı ilə reallaşdırmaq mümkündür. Bu mənada Mustafa Kamal Atatürkün Türkiyə, Şarl de Qollun Fransa üçün etdiklərini Heydər Əliyev ən çətin məqamda Vətəni və xalqı naminə edib.



Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu, Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli dahi övladına məhəbbəti sonsuzdur, əbədidir. Ulu öndər əsl ümumxalq məhəbbəti qazanmış nadir siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, Azərbaycanı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.

Milli-mənəvi dəyərlərimizin hamisi olmuş Heydər Əliyevin hakimiyyətə qayıdışı, bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də tənəzzülün qarşısını aldı. Milli ideologiyaya xidmət edən təhsilimizin inkişafı üçün əlverişli şərait yaradıldı. Heydər Əliyev milli dövlət quruculuğu prosesində "Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir" meyarı ilə çıxış edirdi. Ümummilli lider Heydər Əliyev prioritet sahə olan təhsilə, elmə daim diqqət və qayğı göstərirdi. Xalqımızın milli oyanışında və özünüdərkində misilsiz rol oynayan elm və təhsilin inkişafı ulu öndər Heydər Əliyevin nəhəng dövlətçilik fəaliyyətinin çox mühüm istiqaməti olmuşdur. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə reallaşdırılan təhsil siyasəti özünün məqsədyönlülüyü, müasirliyi, dünyəviliyi və milli dəyərlərə söykənməsi ilə diqqəti cəlb edirdi.

Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və bəlağətsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir məktəbdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində ulu öndərin quruculuq fəaliyyətinin silinməz izləri vardır. Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyevin zəngin irsi hələ uzun illər xalqımızın müstəqillik yolunu işıqlandıracaq.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Ulu öndər milli və bəşəri dəyərlərin daşıyıcısı kimi dahi bir şəxsiyyət idi. Bu görkəmli dövlət xadimi əsrimizin siyasi həyatında mühüm yer tutmuş, uzun və şərəfli yol keçmiş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış, insanlara həmişə dərin hörmət və ehtiram bəsləmişdir.

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənməliyik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir"-deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Şükürlər olsun ki, ulu Tanrı xalqımızın taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə bilən, bütün düyünləri açmağa qadir olan Heydər Əliyev kimi böyük şəxsiyyət də qismət edib. Millətinə xidmət nümunəsi olan bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş ümummilli liderimiz əbədiyaşarlıq qazanmışdır.

Heydər Əliyev sanki dünyaya gələndə elə xalq üçün, onun səadətə yetişməsi üçün gəlmişdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmuşdur. Ümummilli liderimiz əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycan qoydu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Heydər Əliyevin uzaqgörən neft siyasətinin ilk konturları oldu. Məhz bu müqavilədən sonra inkişaf etmiş dünya dövlətlərinin Azərbaycana, burada cərəyan edən proseslərə marağı artdı. Ölkədə uğurlu islahatların bünövrəsi qoyuldu.

Dünya siyasətində nəhəng şəxsiyyət olan Heydər Əliyev qısa zaman kəsiyində ölkəmizi yetərincə tanıdıb. Məhz ulu öndərimizin səyi, zəhməti sayəsində respublikamız sürətli sosial-iqtisadi inkişaf yoluna çıxdı. Heydər Əliyev dühasını, ucalığını, böyüklüyünü həmişə xatırlayacağıq.

Ulu öndərimiz müqəddəs amalları və fəaliyyəti ilə xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ümummilli lider əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. O, respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Dahi və əzəmətli şəxsiyyətin yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaş üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir. Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq onun ruhu qarşısında ən ümdə borcumuzdur.

Heydər Əliyev və onun əməlləri daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin strateji inkişaf kursu bu gün onun layiqli siyasi varisi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçımızın həyata keçirdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar, xalqla birbaşa ünsiyyətdə olması ümummilli lider tərəfindən başlamış işlərin məntiqi davamıdır. Memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimiz bu gün ulu öndərimizin Azərbaycan xalqına ən böyük töhfəsidir. Hər bir Azərbaycan vətəndaşının borcu isə Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaqdır.

***Vaqif ƏMİRASLANOV,***
***tarix elmləri namizədi***

> *“Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Biz indi öz nəqliyyat infrastrukturumuzu möhkəmləndiririk. Bizim dəniz nəqliyyatına böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə böyük rol oynayacaqdır. Regionda digər mühüm işlər də məhz bununla bağlıdır”.*
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCANIN DƏNİZ NƏQLİYYATI SİSTEMİ AVRASİYA MƏKANININ ƏN MÜHÜM NƏQLİYYAT-TRANZİT QOVŞAQLARINDAN BİRİNƏ ÇEVRİLİB

## PREZİDENT İLHAM ƏLİYEVİN UĞURLU FƏALİYYƏTİ NƏTİCƏSİNDƏ BU STRATEJİ SAHƏ DAVAMLI OLARAQ TƏKMİLLƏŞİR, MÜASİRLƏŞİR VƏ MODERNLƏŞİR

**Azərbaycan tarixən qədim İpək yolunun keçdiyi və bir-birinə uzaq məsafədə yerləşən dövlətləri ən qısa yolla birləşdirən, ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkan olub. Ölkəmizin bu sahədəki tarixi rolu indi - qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində daha da artaraq strateji əhəmiyyət kəsb edir. Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilən Azərbaycan həm də bu sahədə yeni təşəbbüslərin müəllifidir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan respublikamız müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.**

### Dəniz nəqliyyatının inkişaf prosesi Heydər Əliyevin adı ilə bağlıdır

“Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olmasını ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə qiymətləndirirdi. Hələ 1998-ci ildə 32 ölkənin və 13 beynəlxalq təşkilatın təmsilçilərinin iştirakı ilə tarixi İpək yolunun bərpasına həsr olunmuş konfransın məhz Bakıda təşkil olunması və Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) həyata keçirilməsini əks etdirən “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş”in də imzalanması məhz ulu öndərin böyük fədakarlığının nəticəsi olmuşdur. Ötən müddət ərzində bu istiqamətdə mühüm genişmiqyaslı layihələr həyata keçirilib.

Təqdirəlayiq haldır ki, ulu öndərin ölkənin tranzit potensialının inkişaf etdirilməsinə yönələn strateji kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, tranzit potensialının artırılması istiqamətində dövlət başçısının təşəbbüsləri nailiyyətlərlə nəticələnir və bu sahəyə yönələn irihəcmli dövlət investisiyaları nəzərdə tutulan işlərin maneəsiz aparılmasına real zəmin yaradır. Xəzər hövzəsində ən böyük ticarət limanı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, dəmir yolu xətlərinin inşası və yenidənqurulması layihələri, yeni beynəlxalq hava limanlarının tikintisi, müasir avtomobil yolları şəbəkəsinin yaradılması Azərbaycanın tranzit daşımalarında iştirakının miqyasını dəfələrlə artırır.

Azərbaycanın nəqliyyat sektorunu dəniz sferası olmadan təsəvvür etmək çətindir. Dəniz nəqliyyatı tarixi inkişaf yolu keçib və bütün zamanlarda öz əhəmiyyətliyini saxlayıb. Müstəqillik qazanıldıqdan sonra, xüsusən isə müasir dövrdə respublikamızda dəniz nəqliyyatı sahəsinin tənzimlənməsi mühüm səciyyə daşıyır. Bu vacib prosesin həyata keçirilməsində mərkəzi icra hakimiyyəti orqanı funksiyasını daşıyan Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ölkə başçısının 6 fevral 2006-cı il tarixli 1271 nömrəli sərəncamına əsasən yaradılıb. Sərəncamda Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində aparılan siyasətin, habelə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Dəniz Təşkilatı və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq konvensiyaların icrasına nəzarətin həyata keçirilməsi Dövlət Dəniz Administrasiyasının səlahiyyətlərinə aid edilib. Azərbaycan Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli fərmanı ilə təsdiq edilmiş “Əsasnamə”yə müvafiq olaraq administrasiya Azərbaycan ərazisində dəniz nəqliyyatı sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyət göstərməkdədir.

Ümumiyyətlə, dünya ticarət məhsullarının 80 faizdən artıq hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması məhz dəniz nəqliyyatı vasitəsi ilə həyata keçirilir. Dəniz nəqliyyatının inkişafı ilə əlaqədar bütün dünya dövlətləri tərəfindən qəbul olunan və riayət edilən, dənizçilik münasibətlərini tənzimləyən tələblərə və normalara daim ehtiyac duyulub. Bu normaların effektiv fəaliyyət göstərən bir təşkilatda müzakirə və qəbul edilməsinin vacibliyi nəzərə alınaraq 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının strukturuna daxil olan Beynəlxalq Dəniz Təşkilatı yaradılıb. Azərbaycan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ilin may ayında Beynəlxalq Dəniz Təşkilatına tam səlahiyyətli üzv qəbul olunub.

Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, dəniz nəqliyyatı kompleksinin inkişafı sahəsində də müstəsna rolunu qeyd etmək istərdim. Dəniz donanmasına malik keçmiş sovet respublikalarının bir çoxunda donanmalar qayğısızlıq və nəzarətsizlik üzündən, demək olar ki, dağılıb. Bizim ölkəmizdə isə iqtisadiyyatımızın strateji cəhətdən mühüm sahəsindən biri olan dəniz nəqliyyatı üzərində nəzarət saxlanılıb. Bu gün də qeyd edilən sahəyə diqqət və qayğı Prezident tərəfindən uğurla davam etdirilir. Bu diqqət və qayğının nəticəsidir ki, hazırda donanmada sərnişin bərələri, “ro-ro” tipli gəmilər, neft tankerləri, quru yük gəmiləri, boru kəməri çəkən, elmi-tədqiqat, qəza-xilasetmə, yedək və dalğıc gəmiləri, torpaqqazan, həmçinin analoqu olmayan iritonnajlı kran gəmiləri mövcuddur ki, bu da ölkəmizin həqiqətən qüdrətli dəniz dövləti olmasını təsdiqləyir. Ümumiyyətlə, hazırda respublikamızda iqtisadiyyatın bütün sahələri ilə yanaşı, dəniz nəqliyyatı sahəsinin də sürətli inkişafı, dövlətimizin tranzit nəqliyyat dəhlizlərinin formalaşmasında iştirak etməsi möhtərəm Prezidentin gərgin əməyinin nəticəsi kimi qiymətləndirilməlidir.

Həmçinin “Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya”nın tələblərinin yerinə yetirilməsi məqsədilə Xəzəryanı ölkələrdə ilk dəfə olaraq Azərbaycanda yaradılmış, ən son naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilmiş Uzaq Məsafədən Tanınma və




İzləmə Milli Mərkəzinin əsas funksiyaları - Azərbaycanın ərazi sularında üzən gəmilərin mövqeyinin peyk və radarlar vasitəsilə izlənilməsi, onların hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, naviqasiya xəbərdarlıqlarına və hava haqqında proqnozlara dair müvafiq məlumatların gəmilərə çatdırılması, “Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları”na riayət olunmasına nəzarətin həyata keçirilməsi, gəmilərdən daxil olan həyəcan siqnallarının (SOS) və digər məlumatların aidiyyəti dövlət qurumlarına çatdırılmasının təmin edilməsi və əlaqələndirmənin təşkili, habelə beynəlxalq təşkilatlar daxil olmaqla, digər ölkələrin eyni adlı milli mərkəzləri və gəmiçilik şirkətləri ilə mütəmadi olaraq operativ əlaqənin yaradılması və informasiya mübadiləsinin həyata keçirilməsindən ibarətdir. Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi öz texniki təchizatı baxımından bir çox qabaqcıl Avropa dövlətlərinin oxşar qurumlarından daha üstündür. Milli Mərkəzdə işə cəlb olunmuş mütəxəssislər xarici ölkələrin müvafiq mərkəzlərində xüsusi təlimlər keçiblər.

### Dövlət Dəniz Administrasiyasının beynəlxalq əməkdaşlığı genişlənir

Dövlət Dəniz Administrasiyası fəaliyyətində Beynəlxalq Dəniz Təşkilatı (BDT) ilə münasibətlərə, eləcə də dəniz nəqliyyatı sahəsi ilə bağlı digər beynəlxalq və regional əməkdaşlığa böyük önəm verir. Qeyd etmək istərdim ki, BDT Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentliyi olub, beynəlxalq dəniz gəmiçiliyinin təhlükəsizliyi, mühafizəsi və dəniz mühitinin qorunmasını həyata keçirən beynəlxalq hökumətlərarası təşkilatdır.

BDT 1948-ci ildə Cenevrədə Birləşmiş Millətlər Təşkilatının beynəlxalq konfransında “Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiyası”nın qəbul edilməsi ilə təsis edilmiş və 1958-ci ildə “Hökumətlərarası dəniz məsləhətləşmə təşkilatı” (IMKO) adı ilə fəaliyyətə başlamışdır. Sözügedən qurumun adı 1982-ci ildən Beynəlxalq Dəniz Təşkilatı adlanır və təşkilata üzv dövlətlərin sayı hal-hazırda 171-dir. BDT-nin rəsmi məqsədi beynəlxalq dəniz gəmiçiliyinə aid istənilən texniki məsələlərdə hökumət tənzimlənməsini və praktika sahəsində hökumətlərin əməkdaşlığını təmin etmək, dənizdə təhlükəsizlik, gəmiçiliyin səmərəliliyi, dənizin gəmilər vasitəsilə çirkləndirilməsinin qarşısının alınması və bu cür çirklənməyə qarşı mübarizə məsələlərində mümkün qədər praktiki baxımdan maksimal normaların hamılıqla qəbul edilməsini təşkil etmək və buna şərait yaratmaq, təşkilatın məqsədi ilə əlaqədar inzibati və hüquqi məsələləri nəzərdən keçirməkdir.

Dövlət Dəniz Administrasiyası qabaqcıl ölkələrin dəniz nəqliyyatı sahəsində təcrübəsinin öyrənilməsi və bu təcrübənin ölkəmizdə tətbiqinə xüsusi diqqət yetirir. Ölkəmiz bu sahədə çoxtərəfli əməkdaşlıq fəaliyyətini təkcə BDT ilə deyil, həmçinin Beynəlxalq Əmək Təşkilatı, Avropa Dəniz Təhlükəsizliyi Agentliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional qurumlarla da inkişaf etdirməkdədir.

Azərbaycan nümayəndə heyəti cari ilin 21-25 noyabr tarixlərində Birləşmiş Millətlər Təşkilatının nüfuzlu təşkilatı olan Beynəlxalq Dəniz Təşkilatının London şəhərində yerləşən baş qərargahında keçirilmiş Dəniz Təhlükəsizliyi Komitəsinin 97-ci Sessiyasında iştirak edib. Sessiyada dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi, dəniz mühitinin mühafizəsi, gələcəkdə dəniz qəzalarının qarşısının alınması, eləcə də beynəlxalq ictimaiyyəti dərindən narahat edən dəniz quldurluğu halları ilə mübarizəyə dair ümumi müzakirələr aparılıb. Sessiyada “Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya”ya, “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya”ya, “Yanğın Təhlükəsizlik Sistemləri haqqında Məcəllə”yə, “Maye qazları qalama şəklində daşıyan gəmilərin inşası və avadanlıqlarına dair Beynəlxalq Məcəllə”yə, “Neft tankerlərinin və qalama yüklər daşıyan gəmilərin yoxlanılması üzrə genişləndirilmiş təftiş proqramı haqqında Beynəlxalq Məcəllə”yə, “Dayanıqlılığa dair Beynəlxalq Məcəllə”yə və dəniz nəqliyyatı sahəsi üzrə bir sıra digər mühüm sənədlərə təklif edilən dəyişikliklər nəzərdən keçirilib.

Beynəlxalq konvensiya və məcəllələrə təklif edilən dəyişikliklərdə gəminin konstruksiyası - struktur, otsek və dayanıqlılıq, maşın şöbəsi və elektrik avadanlıqları yanğından mühafizə, yanğın detektorları və yanğının söndürülməsi, xilasedici vasitələr və avadanlıqlar, dəniz təhlükəsizliyinin gücləndirilməsi üçün xüsusi tədbirlər, müəyyən tip gəmilərin heyəti üçün xüsusi təlimlər barədə tələblər, xilasedici vasitələrin yerləşdirilməsi, gəmi avadanlıqları, qalama yüklər daşıyan gəmilərin yoxlanılması üzrə genişləndirilmiş təftiş proqramı, neft tankerlərinin yoxlanılması üzrə genişləndirilmiş təftiş proqramı, müəyyən əməliyyatlarda istismar olunan gəmilər və müəyyən tip gəmilər üçün tövsiyə və əlavə təlimatlar, sertifikatların etibarlılıq müddətinin artırılması, şirkətlərin məsuliyyətləri, sertifikatlar və onların təsdiqnamələrinə dair təlimatlar, şirkətlərin, kapitanların və gəmi heyətinin tövsiyə olunan məsuliyyətlərinə dair təlimatlar öz əksini tapıb.

Azərbaycan nümayəndə heyəti Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib. Görüş zamanı qarşılıqlı əməkdaşlığın daha səmərəli və effektiv həyata keçirilməsi, habelə dəniz nəqliyyatı sahəsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sessiyanın sonunda Dəniz Təhlükəsizliyi Komitəsinin sədr və sədr müavini vəzifələrinə keçirilən seçkinin nəticələrinə görə, Avstraliyadan olan nümayəndə Bred Qrovs sədr, Argentinadan olan nümayəndə Xuan Karlos Kubisino isə sədr müavini seçilib.

Ölkəmiz 1995-ci ildən BDT üzv olduğu tarixdən etibarən “Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya” (SOLAS-74), “Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya” (MARPOL), “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya” (STCW), “Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya” (COLREG), “Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında Konvensiya” kimi dəniz nəqliyyatı sahəsində 20-dən çox beynəlxalq konvensiya və protokola qoşulmuşdur. Beynəlxalq konvensiya və protokollardan irəli gələrək dəniz nəqliyyatı sahəsinə dair tələblərin təmin olunması qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən həyata keçirilir.

Belə ki, “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının yaradılması haqqında” Prezidentin 6 fevral 2006-cı il tarixli 1271 nömrəli sərəncamında Azərbaycanda dəniz gəmiçiliyi sahəsində aparılan siyasətin, habelə BMT-nin Beynəlxalq Dəniz Təşkilatı və digər beynəlxalq dəniz təşkilatları ilə əməkdaşlığın, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq dəniz konvensiyalarının icrasına nəzarətin həyata keçirilməsi səlahiyyətlərinin Administrasiyaya tapşırılması məsələsi öz əksini tapıb. Dövlət Dəniz Administrasiyası gəmiçilik sahəsində fəaliyyət göstərən müəssisələr, təşkilatlar və Azərbaycanın dövlət bayrağı altında üzən gəmilər tərəfindən bu konvensiyaların tələblərinin yerinə yetirilməsinə nəzarət işini həyata keçirərək müvafiq sahədə böyük uğurların qazanılmasını təmin edib.

Dövlət Dəniz Administrasiyası tərəfindən dənizçilərin hazırlanması və onlara diplomların verilməsi sahəsində həyata keçirilən effektiv fəaliyyətin nəticəsidir ki, 2011-ci ildə Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən aparılmış yoxlamalar nəticəsində Dövlət Dəniz Administrasiyası tərəfindən verilmiş diplom və sertifikatlar Avropa İttifaqının direktivlərinə uyğun olaraq Avropa İttifaqı tərəfindən tanınmışdır və xüsusi ilə qeyd edilməlidir ki, Azərbaycan Respublikası Beynəlxalq Dəniz Təşkilatının “Ağ siyahısı”na daxil edilib.

### Dəniz nəqliyyatı qanunvericiliyi beynəlxalq hüquqi standartlara tam cavab verir

Dəniz nəqliyyatı sahəsində qanunvericiliyimizin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər də xüsusi qeyd edilməlidir. Xatırladım ki, Avropa İttifaqı tərəfindən Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Azərbaycan üzrə Fəaliyyət Proqramı çərçivəsində Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında 2 il müddətində “Azərbaycan Respublikasında dəniz üzgüçülüyünün təhlükəsizliyinin və dəniz mühitinin mühafizəsinin təkmilləşdirilməsi haqqında Tvinninq layihəsi” həyata keçirilib.

Qeyd edilən layihə çərçivəsində Avropa İttifaqı təcrübəsi və qanunvericiliyi nəzərə alınmaqla hazırlanmış “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq Nazirlər Kabinetinə təqdim edilib. Qeyd olunan qanun 18 aprel 2014-cü il tarixində Milli Məclis tərəfindən qəbul olunub. 7 fəsil və 29 maddədən ibarət olan adıçəkilən qanun Azərbaycanın dəniz limanlarında ticarət gəmiçiliyindən yaranan münasibətlərin tənzimlənməsini, limanların inşası, açılması, bağlanması qaydalarını, limanlarda fəaliyyətin həyata keçirilməsini, o cümlədən xidmətlərin göstərilməsi, habelə limanlarda fəaliyyətin dövlət tənzimlənməsinin əsaslarını müəyyən edən normativ müddəaları özündə ehtiva edir.

Həmçinin bu çərçivədə administrasiya tərəfindən hazırlanmış 9 layihədən artıq 7-si (“Azərbaycan Respublikasının Dəniz Limanları Reyestrinin aparılması Qaydası”, “Gəmi agenti haqqında Əsasnamə”, “Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv edilmə Qaydası”, “Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları”, “Limanlarda qanunsuz müdaxilə aktı zamanı təhlükəsizliyin təmin edilməsi Qaydası”, “Limanın və limanın infrastruktur obyektlərinin mühafizəsi Qaydası” və “Dəniz terminalının operatoru tərəfindən realizə olunan yükün və ona görə hesablaşmaların uçotu Qaydası”) təsdiq olunub. Eyni zamanda adıçəkilən Tvinninq layihəsi çərçivəsində dəniz üzgüçülüyünün təhlükəsizliyi üzrə Azərbaycan qanunvericiliyinin “Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya”ya uyğun olaraq təkmilləşdirilməsi ilə bağlı bir sıra mühüm sənədlər işlənib hazırlanıb.

Qeyd edilən layihənin uğurlu icrasının davamı olaraq bildirmək istərdik ki, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında 2015-ci ilin noyabr ayından əsas məqsədi dəniz nəqliyyatı sahəsi üzrə normativ hüquqi aktların beynəlxalq standartlara uyğunlaşdırılmasından ibarət olan “Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək” adlı Tvinninq layihəsinin həyata keçirilməsinə başlanılıb ki, bu layihə çərçivəsində dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin mühafizəsi ilə əlaqədar gəmi sahibləri və dənizçilər üçün inzibati məsuliyyətin müəyyən edilməsini nəzərdə tutan İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilməsi üçün layihə hazırlanıb. Həmin layihə yekunlaşdırılaraq qısa bir zamanda aidiyyəti üzrə təqdim ediləcək.

Azərbaycan Prezidentinin 14 mart 2014-cü il tarixli 338 nömrəli sərəncamına əsasən ölkəmizin ərazisində dəniz üzgüçülüyünün təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi yaradılıb. Nazirlər Kabinetinin 23 may 2014-cü il tarixli 164 nömrəli qərarı ilə təsdiq edilmiş Nizamnaməyə əsasən adıçəkilən Mərkəzin funksiyalarına Azərbaycan Respublikasının ərazi sularında və liman akvatoriyalarında dəniz üzgüçülüyünün təhlükəsizlik sisteminin təşkil olunması, gəmilərin hərəkətinin idarə edilməsi, gəmilərdə yoxlamaların həyata keçirilməsi, bələdçi xidmətinin göstərilməsi, gəmilərin uzaq məsafədən izlənilməsi və dəniz üzgüçülüyünün təhlükəsizliyinə aid digər funksiyalar daxildir.

Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin yaradılması Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların tələblərinin yerinə yetirilməsinə və gəmilərin nəzarət yoxlamasının beynəlxalq standartlara uyğun olaraq daha səmərəli və effektiv həyata keçirilməsinə xidmət göstərməkdədir.

Məlumat üçün qeyd etmək istərdim ki, respublikamızda dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunmasında görülmüş işlər və təşəkkül tapmış mövcud dövlət nəzarət üsulu mütəmadi olaraq ölkəmizə səfərlər edən müstəqil beynəlxalq ekspertlər, habelə Beynəlxalq Dəniz Təşkilatı və Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən müsbət dəyərləndirilərək alqışlanmışdır. Dövlət Dəniz Administrasiyası tərəfindən mütəmadi olaraq dəniz üzgüçülüyünün təhlükəsizliyi sahəsində görülmüş işlər və dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunması səviyyəsi barədə adıçəkilən təşkilatlara illik hesabatlar təqdim edilir. Həmçinin Beynəlxalq Dəniz Təşkilatının müvafiq Qətnaməsinə əsasən 2014-cü ildən başlayaraq həyata keçirilən üzv dövlətlərin audit yoxlaması prosesi çərçivəsində adıçəkilən təşkilatın müstəqil ekspertlərinin yaxın dövrdə növbəti, müfəssəl yoxlama missiyası ilə respublikamıza səfəri planlaşdırılır.

Audit yoxlamasının nəticələri Beynəlxalq Dəniz Təşkilatı tərəfindən rəsmi olaraq dövlətə təqdim olunur və audit yoxlamasının nəticələrində əsas diqqətin dəniz üzgüçülüyünün təhlükəsizliyi ilə bağlı beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş dövlət nəzarətinin effektiv və səmərəli həyata keçirilməsinə yönəldiyini nəzərə alsaq, hazırda formalaşdırılmış dövlət nəzarət mexanizmi audit yoxlamasından müsbət rəylə keçilərək respublikamızın dəniz nəqliyyatı sahəsində beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərinin icrasının, habelə Beynəlxalq Dəniz Təşkilatında, eləcə də beynəlxalq aləmdə dəniz nəqliyyatı sahəsində müsbət imicinin qorunub saxlanılmasının və daha da artmasının qarantı hesab edilməlidir.

### Nəqliyyat donanmasının yenilənməsi daim diqqət mərkəzindədir

Dəniz üzgüçülüyünün təhlükəsizliyi baxımından mühüm göstərici olan dəniz donanmasını təşkil edən həmin gəmilərin orta yaş həddinin daha da azaldılması başlıca hədəf kimi müəyyən olunub və ölkəmizin tranzit potensialının gücləndirilməsi məqsədilə donanmanın yenilənməsi və müasir tələblərə cavab verən yeni gəmilərin tikintisi daim diqqət mərkəzində saxlanılır və bu məsələyə tərəfimizdən xüsusi həssaslıqla yanaşılır.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC tərəfindən öz maddi imkanları hesabına ötən 3 ildə quru yük gəmilərinin, neft tankerlərinin, təchizat və sərnişin gəmilərinin alınması ilə donanmanın yenilənməsi istiqamətində mühüm addımlar atılmışdır.

Həmçinin “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sifarişi əsasında Bakı Gəmiqayırma Zavodunda Xəzər dənizində ilk olacaq iki ədəd yeni unikal Ro-Pax tipli bərə gəmisi inşa edilməkdədir. Eləcə də müasir tələblərə cavab verən 7 - 13 min ton arası yükgötürmə qabiliyyətinə malik olan tankerlərin sifarişi nəzərdə tutulub.

Xüsusi olaraq vurğulamaq istərdim ki, quru yük gəmilərinin, tankerlərin, dənizdə neft və qaz əməliyyatlarının aparılmasına xidmət edən ixtisaslaşmış donanma üçün tələb olunan gəmilərin inşa edilməsi üzrə geniş texniki imkanlara malik Bakı Gəmiqayırma Zavodu istifadədə olan gəmilərin müasir standartlara uyğun, daha yeni gəmilərlə yenilənməsi baxımından ümumiyyətlə respublikamızda fəaliyyət göstərən bütün gəmi sahibləri üçün cəlbedici xarakter daşıyır.

Bununla əlaqədar olaraq bildirmək istərdim ki, adıçəkilən zavodda inşası 2017-ci ilin aprel ayına qədər başa çatdırılması planlaşdırılan, regionda analoqu olmayan xüsusi təyinatlı “Xankəndi” gəmisi 2017 - 2027-ci illər ərzində “Şahdəniz-2” layihəsinin sualtı quraşdırma işlərində istifadə ediləcək. 155 metr uzunluğa, 32 metr enə, 13 metr hündürlüyə malik olacaq gəminin 2,5 metr hündürlüyündə böyük dalğalarda (Hs) fəaliyyət göstərə bilmək üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kranı, iki ədəd 18 nəfərlik dalğıc kapsulu sistemi, iki ədəd məsafədən idarə olunan aparatı, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası olacaq.

Azərbaycanda gəmiçilik sahəsi üçün strateji əhəmiyyətə malik olan bu sifarişlər yalnız Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasının yenilənməsi üçün deyil, eyni zamanda ölkəmizdə yerli gəmiqayırma təcrübəsinin zənginləşməsi üçün də çox mühümdür.

Xüsusilə vurğulanmalıdır ki, ölkəmizdə gəmiçilik sahəsində mövcud infrastrukturun təkmilləşdirilməsi, habelə regionda ən iri, müasir və güclü potensiala malik milli gəmiqayırma zavodunun tikintisi dəniz nəqliyyatı sahəsinə dövlətimiz tərəfindən göstərilən dəstəyin bariz nümunəsidir.

### Azərbaycanın dəniz nəqliyyatı infrastrukturu Asiya və Avropa arasında səmərəli, etibarlı, birləşdirici körpüdür

Dəniz yolları, digər nəqliyyat xətləri bəşər sivilizasiyasının tarixində həmişə çox böyük rol oynayıb, həyatın bütün sahələrinə öz mühüm təsirini daim göstərib. Şərqlə Qərbi birləşdirən tranzit qovşağı kimi əlverişli coğrafi mövqeyə və zəngin təbii sərvətlərə malik olan ölkəmiz, eləcə də regionun inkişafı üçün yeni imkanların yaradılması, bu ərazilərdə yaşayan insanların rifahına töhfə verilməsi baxımından nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və etibarlılığının təmin edilməsi çox vacib bir məsələdir.

Bu gün administrasiya tərəfindən regionun lider dövlətinə çevrilən ölkəmiz üzrə dəniz nəqliyyatı ilə daşımaların təhlükəsiz həyata keçirilməsi məqsədilə dəniz üzgüçülüyünün təhlükəsizliyinin səmərəli və effektiv təşkili, eləcə də gəmilərin limanlara girişi və çıxışı zamanı vaxt itkisinin də qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülür və həmin işlər ciddi nəzarətdə saxlanılır.

Xüsusilə vurğulanmalıdır ki, dəniz nəqliyyatı ilə daşımaların həyata keçirilməsi təhlükəsiz və etibarlı olmasa, bu sahə əcnəbi və yerli yük sahibləri üçün heç zaman cəlbedici ola bilməz. Belə ki, qeyd edilən amil nəqliyyat dəhlizləri ilə tranzit yükdaşımalarının həyata keçirilməsində yük sahiblərinin daim xüsusi diqqət etdikləri məsələdir.

Ölkəmizin ərazisi üzərindən keçən beynəlxalq və regional nəqliyyat dəhlizləri üzrə gəmilərin hərəkətinin optimallaşdırılması, dəniz və digər nəqliyyat növləri arasında nəqliyyat qovşaqlarında yük sahibləri, operatorlar, ekspeditorlar, agentlik və digər təşkilatlarla qarşılıqlı münasibətlərin təkmilləşdirilməsi, dəniz yollarında naviqasiya təminatının yüksəldilməsi, eləcə də naviqasiya avadanlıqlarının yeni avadanlıqlarla əvəz edilməsi istiqamətində Dövlət Dəniz Administrasiyası tərəfindən müvafiq işlər görülür.

Administrasiya tərəfindən, həmçinin dəniz nəqliyyatının inkişaf etdirilməsi, nəqliyyat donanmasının dünya bazarında qarşıya çıxan rəqabətin tələblərinə uyğunlaşdırılması üçün yeniləşdirilməsi istiqamətində atılan mühüm addımlar dəniz nəqliyyatı ilə daşımaların həyata keçirilməsinə öz müsbət töhfəsini verəcək.

Fəaliyyətimizdəki uğurlardan danışarkən hazırda Dövlət Dəniz Administrasiyası tərəfindən göstərilən xidmətlərin, demək olar ki, hamısının elektronlaşdırılması faktını diqqətə çatdırmaq yerinə düşərdi. Hüquqi və ya fiziki şəxslər tərəfindən administrasiyaya ünvanlanan müraciətlər hətta qanunvericiliklə müəyyən edilmiş müddətdən də az bir zamanda əməkdaşlarımız tərəfindən ətraflı şəkildə cavablandırılır və həmin müraciətlərin böyük əksəriyyəti dərhal öz müsbət həllini tapır.

Xüsusilə bildirmək istərdim ki, administrasiya tərəfindən daimi olaraq dəniz nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən şirkətlərə qarşılaşdıqları problemlərin nəzəri və praktiki həlli yolları izah edilir və gələcəkdə bu kimi hallarla qarşılaşmamaları üçün qabaqcıl beynəlxalq təcrübə də nəzərə alınmaqla müvafiq tövsiyələr verilir.

Bununla yanaşı vurğulanmalıdır ki, dəniz nəqliyyatı müəssisələri, digər təşkilatlar, eləcə də vətəndaşlarla operativ əlaqənin təmin edilməsi məqsədilə Dövlət Dəniz Administrasiyasında həftənin yeddi günü hər gün 24 saat aktiv olmaqla “Qaynar xətt” rabitə əlaqəsi fəaliyyət göstərməkdədir, eləcə də vətəndaşlarımız administrasiyanın rəsmi internet səhifəsində yaradılmış interaktiv sual-cavab bölməsi vasitəsilə də administrasiyaya aidiyyəti məsələlər üzrə müraciətlər ünvanlaya bilərlər.

Müstəqillik illərində Azərbaycan Respublikasının dəniz nəqliyyatı sistemi Avropa və Asiya nəqliyyat sisteminə intensiv inteqrasiya edərək Avroatlantik məkanın mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilib. Asiya ilə Avropa arasında birləşdirici körpü rolunu oynayan Azərbaycan dəniz nəqliyyatı infrastrukturunu möhkəmləndirməklə yanaşı, onun davamlı təkmilləşməsini, müasirləşməsini və modernləşməsini təmin edir.

Əminliklə demək olar ki, Prezident İlham Əliyevin Azərbaycanın dəniz nəqliyyatı və tranziti potensialının artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri bundan sonra da ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verəcək.

***Qüdrət QURBANOV,***
***Azərbaycan Respublikası***
***Dövlət Dəniz Administrasiyasının rəisi***

# BAKIDA "STRATEJİ TƏRƏFDAŞLIQ 1520: DÜNYANIN DÖRD TƏRƏFİNİ BİRLƏŞDİRƏN - XƏZƏR REGİONU" MÖVZUSUNDA BEYNƏLXALQ BİZNES FORUM KEÇİRİLİB







***Biznes forumda enli dəmir yoluna malik ölkələrin milli dəmiryol şirkətlərinin, aparıcı nəqliyyat, logistika və maşınqayırma müəssisələrinin, Azərbaycanın və Rusiyanın əlaqədar dövlət idarəetmə orqanlarının rəhbərləri iştirak ediblər.***

Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov biznes forumda çıxış edərək, iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev adından salamlayıb, onlara uğurlar və rifah arzu edib.

Baş nazirin müavini deyib: "Bakı beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi mühüm mərkəzdir. Azərbaycanın nəqliyyat infrastrukturu hələ XIX əsrin ortalarında neft hasilatının inkişafı ilə əlaqədar genişlənməyə başlayıb". A.Şərifov xatırladıb ki, SSRİ-də ilk elektrikləşdirilmiş dəmir yolu məhz Azərbaycanda yaradılıb. Ölkə rəhbərliyinin nəqliyyat infrastrukturunun inkişafına diqqətindən danışan A.Şərifov qeyd edib ki, son illər bu sahəyə təqribən 25 milyard dollar yatırılıb. O deyib: "Həmin vəsait bərə keçidlərinin, avtomobil yollarının tikintisinə, Azərbaycan ilə Gürcüstan arasında dəmir yolunun tam yenilənməsinə yönəldilib". Azərbaycanın iştirakı ilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, "Şimal-Cənub", "Qərb-Şərq" kimi nəqliyyat layihələrinin həyata keçirildiyini xatırladan Baş nazirin müavini biznes forum iştirakçılarına bildirib ki, Azərbaycanı İranla və dəmir yolunun Azərbaycandan keçən hissəsini həmin istiqamətdə birləşdirən körpünün tikintisi ilin sonuna qədər başa çatacaq. "Bakı-Tbilisi-Qars" dəmir yolu da elə bu ilin sonunda işə salınacaq. O bildirib ki, "Bakı-Tbilisi-Qars" dəmir yolu birbaşa Avropaya gedən yoldur. Baş nazirin müavini Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılmasından, onun ərazisində Azad Ticarət Zonasının yaradılması layihəsinin icrasından danışaraq, rusiyalı iş adamlarını həmin layihəyə qoşulmağa dəvət edib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov bildirib ki, forumda əsasən "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri ilə multimodal daşımaların təşkili, beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı problemlər, dəmir yolu infrastrukturunun tikintisi, dəmiryol nəqliyyatı vasitələrinin istehsalı, logistik zəncirvarı əlaqələrin qurulması və digər məsələlər müzakirə ediləcək. O, ölkənin beynəlxalq nəqliyyat dəhlizlərinin mərkəzinə çevrilə biləcəyini, Astara-Yalama istiqamətində də dəmir yollarının tam yenilənəcəyini, Azərbaycanın Astara-Rəşt dəmir yolunun tikintisi üçün İrana kredit ayıracağını bildirib. C.Qurbanov İran və Azərbaycandan keçməklə, Mumbaydan Rusiyaya konteyner qatarlarının sınaq yürüşünün yoxlanması və təhlili üçün işçi qruplarının yaradılmasını zəruri hesab etdiyini deyib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin müavini Fərhad Quliyev Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri istiqamətində həyata keçirilən infrastruktur layihələri haqqında forum iştirakçılarına məlumat verib. Onun sözlərinə görə, Xəzərdə yeganə bərə operatoru olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri istiqamətində konteyner və vaqon daşımalarında fəaliyyəti də müstəsna əhəmiyyətə malikdir.

Biznes forumun iştirakçılarına Gəmiçiliyin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda tikiləcək Ro-Pax tipli unikal gəmilər və şirkətin son illər yenilənən donanması haqqında da məlumat verilib. Bildirilb ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin artması gözlənilən tranzit yüklərin daşınmasında güclü potensialı var

"Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Aleksandr Mişarin deyib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı forumun əsas mövzusudur. O xatırladıb ki, artıq Hindistanın Mumbay şəhərindən Rusiyaya nümunəvi qatar yola salınıb və bu qatar İran və Azərbaycan ərazilərindən keçib. A.Mişarin deyib ki, Mumbaydan Sankt-Peterburqa yüklərin daşınması müddəti yeni istiqamət sayəsində Süveyş kanalından keçən ənənəvi marşrutla müqayisədə 14 gün azala bilər. O, həmçinin bildirib ki, Azərbaycan ilə Rusiya, habelə Rusiya ilə İran arasında yük axını son üç ildə xeyli artıb. A.Mişarinin sözlərinə görə, yükdaşımaların da strukturu dəyişib, hazırda əsasən yüksək gəlir gətirən yüklər daşınır.

İran Dəmir Yolu İdarəsi sədrinin müavini Hüseyn Aşuri ölkəsinin nəqliyyat potensialından danışaraq deyib ki, "Şimal-Cənub" layihəsinin həyata keçirilməsi sayəsində yüklərin daşınması müddəti 40 faiz, onların daşınma xərcləri 30 faiz azalacaq. O, tranzit yüklər sahəsində daha səmərəli işləmək üçün dəhlizə görə məsuliyyət daşıyan nəqliyyat şirkətinin yaradılmasını, bu şirkətin fəaliyyətinin əlaqələndirilməsi üçün marşrutun keçdiyi ölkələrdə onun filiallarının açılmasını, habelə şirkət təşkil edilənə qədər həmin ölkələrin iştirakı ilə işçi qrupunun yaradılmasını təklif edib.

Qazaxıstanın nümayəndəsi, "Qazaxıstan Dəmir Yolları" Milli Şirkəti" SC-nin vitse-prezidenti Sanjar Yelyubayev bildirib ki, Qazaxıstan, Azərbaycan və Gürcüstan ərazilərindən keçməklə, Çindən Avropaya Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi ilə üç qatar yola salınıb. O, tərəflərə müraciət edərək, onları vahid tarif siyasəti yürütməyə və alternativ logistika yolları axtarmağa çağırıb.

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahil Babayev biznes forumda çıxış edərək deyib ki, Azərbaycan "Şimal-Cənub", "Şərq-Qərb" layihələrinin icrasında əhəmiyyətli rol oynayan regional nəqliyyat habıdır. S.Babayev nəqliyyat dəhlizində çatışmayan hissələrin yaradılması prosesini sürətləndirməyə, logistikanı genişləndirməyə, prosedurları sadələşdirməyə, yükdaşımalara vahid qaydalar tətbiq etməyə çağırıb.

"Gürcüstan Dəmir Yolu" SC-nin baş direktoru Mamuka Baxtadze bildirib ki, Avropa İttifaqı ölkələrində istehsal olunmuş avtomobillərdən ibarət ilk konteyner qatarı dekabrın ortalarında Poti limanından Tehrana yola düşəcək.

"Uralvaqonzavod" Elm-İstehsalat Korporasiyası" SC-nin baş direktoru Oleq Siyenko şirkətin "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişini yerinə yetirərək, müxtəlif çeşidli 3 min yük vaqonu göndərməsindən danışıb. O bildirib ki, müəssisə artıq İran Dəmir Yolu İdarəsi ilə də əməkdaşlıq etməyə başlayıb, bu ölkə üçün yük vaqonlarının 9 modelini layihələndirib. "Şimal-Cənub" layihəsinə toxunan O.Siyenko bildirib ki, bu, təkcə regionda deyil, həm də dünyada ən uğurlu nəqliyyat layihəsi olacaq. O, "Bakı-Tbilisi-Qars" dəmir yolu layihəsini yüksək qiymətləndirərək, onu güclü geosiyasi layihə adlandırıb.

Biznes forum çərçivəsində sənədlər - "Azərbaycan Dəmir Yolları" QSC ilə "Ukrayna Dəmir Yolu" Publik-Səhmdar Cəmiyyəti (PSC) arasında qarşılıqlı anlaşma haqqında Memorandum; "TransKonteyner" PSC ilə "Port Dalyan Ltd korporasiyası" SC arasında strateji əməkdaşlıq niyyətləri haqqında Memorandum; "TransKonteyner" PSC ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında əməkdaşlıq haqqında Memorandum; Hindistan Nəqliyyat-Logistika Assosiasiyaları Federasiyası ilə "RJD Logistika" SC arasında strateji əməkdaşlıq haqqında Saziş; "Azərbaycan Dəmir Yolları" QSC ilə "Rusaqrotrans" QSC arasında əməkdaşlıq haqqında Memorandum; "RJDstroy" SC ilə "Bakı Metropoliteni" QSC arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

# AŞQABAD KONFRANSI NƏQLİYYATIN DAVAMLI İNKİŞAFI ÜÇÜN YENİ PERSPEKTİVLƏR MÜƏYYƏN EDİB









***Noyabrın 26-27-də Türkmənistanın paytaxtı Aşqabadda BMT-nin dəstəyi ilə "Davamlı nəqliyyat sistemi" mövzusunda Birinci qlobal konfrans keçirilib. Konfrans iştirakçıları bəşəriyyətin firavanlaşmasını və ətraf mühitin qorunmasını təmin edəcək yeni yollar müəyyən ediblər.***

Konfransda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, BMT-nin baş katibi Pan Gi Mun, ATƏT-in baş katibi Lamberto Zanyer, Gürcüstan Prezidenti Georgi Marqvelaşvili, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qəni, Pakistanın baş naziri Məhəmməd Nəvaz Şərif, habelə 30-dan çox ölkənin müvafiq nazirlik və idarələrinin nümayəndələri, ekspertlər iştirak ediblər.

Tədbirdə Azərbaycanı "Azərbaycan Dəmir Yolları" qapalı səhmdar cəmiyyətinin sədri Cavid Qurbanov başda olmaqla Nəqliyyat Nazirliyinin nümayəndələrinin daxil olduğu nümayəndə heyəti və səfir Həsən Zeynalov başda olmaqla Azərbaycanın Türkmənistandakı səfirliyinin əməkdaşları təmsil edirdi.

Tədbirin rəsmi açılış mərasimində çıxış edən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov bildirib ki, müasir nəqliyyat infrastrukturunun formalaşması, bu sahəyə yeni ərazilərin cəlb edilməsi həm yük dövriyyəsinin artırılması, yola sərf edilən vaxtın azaldılması, əlavə investisiyalar və digər üstünlüklər, həm də yeni iş yerləri yaradılması, sosial obyektlər tikintisi deməkdir.

Q.Berdiməhəmmədov deyib ki, inkişaf və tərəqqinin etalonu məhz insanlar və onların ümdə tələbatı olmalıdır. Bu sözlər nəqliyyat sahəsinə də aiddir.

Qlobal nəqliyyat konfransında malların səmərəli yerdəyişməsi və insanların hərəkəti üçün nəzərdə tutulan davamlı, təhlükəsiz, səmərəli və etibarlı multimodal nəqliyyat dəhlizlərinin yaradılması yolları müzakirə edilib.

BMT-nin Baş katibi Pan Gi Mun özünün keçirdiyi mətbuat konfransında bildirib ki, BMT tarixində nəqliyyatın inkişafı məsələlərinə həsr edilmiş ilk qlobal konfrans olan bu tədbir onu göstərir ki, davamlı inkişafın təmin edilməsində və iqlim dəyişmələrinə qarşı mübarizədə nəqliyyat sahəsinin əhəmiyyəti getdikcə daha dərindən dərk edilir. Baş katib beynəlxalq nəqliyyat dəhlizləri yaradılmasında Türkmənistanın səylərini və təcrübəsini yüksək qiymətləndirib.

Pan Gi Mun bildirib ki, nəqliyyat sektorunun davamlı inkişafı qeyri-sabit praktikalar nəticəsində yaranmış problemlərin həlli üçün həyati əhəmiyyətli məsələdir. Parnik qazları tullantılarının dörddə bir hissəsinin mənbəyi nəqliyyat sektorudur. Yol-nəqliyyat hadisələrində hər il 1,25 milyondan çox insan həlak olur. Belə ölüm hallarının 90 faizi inkişaf etməkdə olan ölkələrdə baş verir.

BMT-nin Baş katibi BMT üzvü olan bütün dövlətləri, BMT sisteminin nümayəndələrini, əsas qrupları və digər əlaqədar tərəfləri nəqliyyatın davamlı inkişafı üzrə öhdəlikləri imzalamağa və bu sahədə əməkdaşlığı tənzimləməyə çağırıb.

Pan Gi Mun deyib: "Əgər biz nəqliyyat sahəsində zəruri tədbirlər görməsək, qlobal temperatur artımını Selsi şkalası ilə nəinki 1,5 dərəcə, hətta 2 dərəcə həddində saxlamaq mümkün olmayacaq".

Xatırladaq ki, qlobal temperaturun Selsi şkalası ilə 1,5 dərəcədən çox artmasına yol verməməyin zəruriliyi iqlim üzrə Paris sazişində təsbit edilib.

Konfrans çərçivəsində Türkmənistanın təşəbbüsü ilə qitənin nəqliyyat sistemlərinin inkişafı layihələrinə xüsusi diqqət yetirilib. Belə layihələr sırasında "Şimal-Cənub" vektoru üzrə Qazaxıstan-Türkmənistan-İran polad magistralı, Aşqabadda yeni beynəlxalq aeroportun istifadəyə verilməsi, Amu-Dərya çayı üzərindən Türkmənabad-Fərab dəmiryol və avtomobil körpülərinin, Aşqabad-Türkmənbaşı avtobanının və Türkmənbaşı şəhərində beynəlxalq dəniz limanının tikintisi layihələri var.

Forum çərçivəsində plenar iclaslar və ixtisaslaşdırılmış sessiyalar, tematik təqdimatlar keçirilib, bir sıra beynəlxalq sənədlər imzalanıb, ikitərəfli və çoxtərəfli görüşlər və danışıqlar aparılıb.

Konfransın seksiya iclasları XXI əsrdə ictimai nəqliyyatın rolu və formaları, nəqliyyat sahəsinin inkişafı üçün energetikanın əhəmiyyəti, kombinə edilmiş nəqliyyat dəhlizlərinin davamlı şəbəkəsinin yaradılması, ayrı-ayrı ölkələrin və beynəlxalq birliyin daxili resursları, dövlət - özəl sektor tərəfdaşlığı hesabına iri logistik layihələrin investisiyalarla təmin edilməsi məsələlərinə həsr edilib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov konfransda çıxış edib. O qeyd edib ki, "Şimal-Cənub" və "Qərb-Şərq" beynəlxalq nəqliyyat dəhlizləri çərçivəsində dəmiryol sahələrinin tikintisi üzrə fəal iş aparılır. Daha sonra o, həmin beynəlxalq nəqliyyat dəhlizləri çərçivəsində aparılan işlər, yeni avtomobil yolları və dəmiryollar, yeni liman tikintisi, limanın ətrafında azad ticarət zonası yaradılması və başqa tədbirlər barədə ətraflı məlumat verib.

Cavid Qurbanov tədbir çərçivəsində Türkmənistanın baş nazirinin müavini, xarici işlər naziri Rəşid Mərədov, Türkmənistanın baş nazirinin müavini, nəqliyyat və rabitə naziri Satlık Satlıkov, dəmir yol naziri Bayram Annamərədov və dəniz və çay nəqliyyatı xidmətinin rəisi Aman Qurdovla ilə ikitərəfli görüşlər keçirib. Bu görüşlərdə "Qərb-Şərq" nəqliyyat dəhlizinin perspektivləri, Türkmənistan tərəfində bərələrin yüklərinin operativ boşaldılması, Türkmənbaşı limanının dərinləşdirilməsi üzrə işlərin gedişi, iki ölkə arasında "ro-ro" tipli bərələrin işə salınması və ikitərəfli münasibətlərin digər aspektləri nəzərdən keçirilib.

Azərbaycan nümayəndə heyəti Hindistanın yol-nəqliyyat magistralları və gəmiçilik məsələləri üzrə dövlət naziri Pon Radxakrişna ilə görüşlər keçirib. Bu görüşlərdə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin potensialı və həmin marşrutun inkişafı ilə bağlı tədbirlər müzakirə edilib.

Qeyd olunub ki, "Şimal-Cənub" nəqliyyat dəhlizi İran, Azərbaycan və Rusiya dəmir yollarının birləşdirilməsi vasitəsilə Skandinaviya ölkələrini Fars körfəzi və Cənubi Asiya ölkələri ilə əlaqələndirəcək. Bu dəhliz vasitəsilə birinci mərhələdə ildə 6-10 milyon ton yük daşınacaq, ikinci mərhələdə isə bu göstərici ildə 15-20 milyon tona çatdırılacaq.

Davamlı nəqliyyat üzrə Aşqabadda keçirilən qlobal konfransın yekunlarına həsr edilmiş mətbuat konfransında BMT Baş katibinin müavini, eyni zamanda bu konfransın baş katibi olan Vu Honqbo deyib ki, forum iştirakçıları insanların, o cümlədən bizim uşaqlarımızın və nəvələrimizin salamatlığı naminə bir araya toplaşıblar. O vurğulayıb ki, davamlı nəqliyyatın təmin edilməsi bütün insanlar üçün daha təhlükəsiz və daha sağlam dünya yaratmaq məqsədinin reallaşdırılması baxımından zəruridir.

BMT Baş katibinin müavini qeyd edib ki, bu cür mühüm tədbirin Türkmənistanda keçirilməsi bu ölkənin yüksək beynəlxalq nüfuzuna və Türkmənistan liderinin BMT Baş Məclisinin tribunasından səsləndirdiyi, nəqliyyat-kommunikasiya sektorunda tərəfdaşlığın inkişafına yönəlmiş təşəbbüslərin bəyənilməsinə dəlalət edir. Bu təkliflərin aktuallığı və onlara ehtiyac olması göz qabağındadır, çünki dünya iqtisadiyyatının əsas seqmentlərindən biri olan nəqliyyat BMT-nin Davamlı İnkişaf Hədəflərinin reallaşdırılmasında mühüm rol oynayır.

Asiya beynəlxalq dəmiryol nəqliyyat dəhlizinin birinci növbəsinin – Atamurad – İmamnəzər (Türkmənistan) – Akina (Əfqanıstan) sahəsinin əhəmiyyəti də qeyd edilib. Xatırladaq ki, beynəlxalq dəhlizin bu sahəsinin təntənəli açılışı noyabrın 28-də keçirilib.

Türkmənistan-Əfqanıstan-Tacikistan transmilli dəmir yolunun birinci növbəsinin açılış mərasimində çıxış edən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov qeyd edib ki, yeni magistralın açılması qonşu ölkələr arasında iqtisadi əməkdaşlığın inkişafına, habelə malların Azərbaycana, Çinə, Hindistana, Avropa ölkələrinə və digər regionlara çatdırılmasına kömək edəcək. Yaxın günlərdə Amu-Dərya çayı üzərindən yeni dəmiryol və avtomobil körpülərinin də açılışı olacaq.

Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qəni öz çıxışında qeyd edib ki, Böyük İpək yolunun dirçəldilməsi əlaməti olan yeni dəmiryol magistralı Avropa-Sakit okean regionu və Asiya ölkələri istiqamətində mühüm nəqliyyat dəhlizinə çevriləcək.

Türkmənistan və Əfqanıstan prezidentləri neft məhsullarının qəbulu, saxlanması və nəqli üzrə dəmiryol terminalının açılış mərasimində də iştirak ediblər. Bu terminal gün ərzində 2 min ton benzini, dizel yanacağını və aviasiya kerosinini avtosisternlərə yükləməyə imkan verəcək.

Türkmənistanın dövlət başçısı Qurbanqulu Berdiməhəmmədov və Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qəni Akina dəmiryol stansiyasının açılış mərasimində iştirak ediblər. Onlar sərhədə qədər 3,5 kilometr məsafə qət edərək bu stansiyaya gəlmiş ilk qatarı qarşılayıblar.

# TƏLİMLƏRDƏ GƏMİÇİLİYİN 130-DAN ÇOX ƏMƏKDAŞI İŞTİRAK EDİB









***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC əməkdaşlarının bilik və bacarıqlarının artırılması, o cümlədən beynəlxalq təcrübənin mənimsənilməsi üçün təlimlərin təşkilini davam etdirir.***

Noyabrın 15-dən başlayan təlimlər Gəmiçiliyin müxtəlif struktur bölmələrinin işçiləri üçün nəzərdə tutulub və"Liderlik, komanda ilə işləmə və idarəetmə bacarıqları", "Risklərin qiymətləndirilməsi", "Dənizçilik sahəsində Əməyə Dair Konvensiya (2006) ilə tanışlıq", "Sağlamlıq, əməyin təhlükəsizliyi, keyfiyyət, ətraf mühit və enerji idarəetmə sistemləri" mövzularında aparılıb.

İnteraktiv formada təşkil olunan təlimlərdə dinləyicilər müxtəlif ssenarilər üzrə hazırlanan vəziyyətlərlə bağlı müzakirələr aparıb, komanda halında verilən tapşırıqları həll ediblər.

İşçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və fəaliyyətlərinin beynəlxalq standartlara uyğun təşkil edilməsi məqsədilə keçirilən təlimləri beynəlxalq dərəcəli təlimçi, gəmiçilik sahəsində böyük təcrübəyə malik kapitan Titos Giannakakis aparıb. Noyabrın 24-dək davam edən təlimlərdə Gəmiçiliyin 130-dan çox əməkdaşı iştirak edib.

# XƏZƏRİN HÜQUQİ STATUSU İLƏ BAĞLI NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜ GƏLƏN İL ASTANADA KEÇİRİLƏCƏK

***İranın xarici işlər nazirinin müavini, Prezidentin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi üzrə aparılan danışıqlardakı xüsusi nümayəndəsi İbrahim Rəhimpur Moskvaya səfər edib.***

Səfər zamanı rusiyalı həmkarı İqor Bratçikovla görüşən İ.Rəhimpur Xəzər dənizinin hüquqi statusuna dair fikir mübadiləsi aparıb. Görüşdə qeyd olunub ki, dənizin hüquqi statusunu müəyyən edəcək konvensiyanın hazırlanması üzrə işlər davam edir. Diqqətə çatdırılıb ki, bu sənəd üzərində bütün Xəzər sahili ölkələrinin təmsilçiləri işləyirlər.



Görüşdə vurğulanıb ki, İran, Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistanın xarici işlər nazirlərinin Xəzərin hüquqi statusu ilə bağlı növbəti Zirvə görüşü gələn il Astana şəhərində keçiriləcək.

# TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB




***Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişaf perspektivləri Bakıda dördtərəfli görüşdə müzakirə olunub.***

Görüşdə «Azərbaycan Dəmir Yolları QSC-nin sədri Cavid Qurbanov, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin sədri Rauf Vəliyev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş direktoru Taleh Ziyadov, «Qazaxıstan Dəmir Yolu» SC-nin prezidenti Kanat Alpısbayev, Türkiyə Dəmir Yolu Daşımaçılığının baş direktoru Veysi Kurt və «Gürcüstan Dəmir Yolu» SC-nin sədri Mamuka Baxtadze iştirak ediblər.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qayğı və dəstəyi ilə beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşması prosesində ölkəmizin aktiv iştirakı, Azərbaycan Dəmir Yolunda həyata keçirilən islahatlar, ölkənin tranzit potensialının artırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verib.

Tərəflər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişaf perspektivləri, bu marşrut ilə daşınan yüklərin həcminin artırılması və tariflərin optimallaşdırılması məsələlərini müzakirə ediblər.

"Qazaxıstan Dəmir Yolu" SC-nin prezidenti Kanat Alpısbayev, «Gürcüstan Dəmir Yolu» SC-nin sədri Mamuka Baxtadze, Türkiyə Dəmir Yolu Daşımaçılığının baş direktoru Veysi Kurt çıxış edərək Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun ölkələr üçün olduqca önəmli layihə olduğunu, bu marşruta yük axının cəlb edilməsi üçün bütün imkanları səfərbər etməyin vacib olduğunu bildiriblər.

Görüşün sonunda anlaşma memorandum imzalanıb.

Xatırladaq ki, avqustun 3-də Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə "Şixezi (Çin)-Dostık-Aktau-Ələt limanı" istiqamətində hərəkət edən ilk "Nomand ekspress" sınaq konteyner qatarı Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatıb. Çindən gələn ilk konteyner qatarı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə Koordinasiya Komitəsinin iclaslarında əldə etdikləri çevik tarif siyasəti və əlverişli texniki şəraitin yaradılması ilə bağlı danışıqların nəticəsi olaraq mümkün olub. Daha sonra Ukrayna Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutuna qoşulub.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə hərəkət edən "Nomad Ekspress" qatarı orta hesabla 10-12 günə yükləri Çindən Avropaya çatdırır. Bu da marşrutun əsas üstünlüklərindən biridir. Yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsindən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yükötürmə qabiliyyəti artacaq və qatarların çatdırılma vaxtı qısalacaq.

# AUDİT YOXLAMASINA HAZIRLIQ İŞLƏRİ APARILIR

**Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlərin audit sxeminə (IMSAS) əsasən keçirilməsi nəzərdə tutulan audit yoxlamasına hazırlıq işlərinin aparılması məqsədilə görüş keçirilib.**






Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, audit yoxlamasına hazırlıq işlərinin aparılması məqsədilə keçirilən görüşdə Azərbaycan Respublikasının Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Müdafiə, Ədliyyə, Maliyyə, İqtisadiyyat, Xarici İşlər nazirliklərinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətlərinin nümayəndələri iştirak ediblər.

Görüş zamanı "Azərbaycan Respublikasının Xəzər dənizi ərazisində neft dağılmalarının xəbərdarlığı və ləğvi Milli Planı"nın layihəsinin təsdiqlənməsi, axtarış–xilasetmə sahəsində əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı əməkdaşlıq planının təsdiqlənməsi, "Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair Beynəlxalq Məcəllə"nin (İMDG Code) Azərbaycan dilinə tərcümə edilməsi və Məcəllədən irəli gələn məsələlərin həlli, "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nın yenilənməsi, Beynəlxalq Hidroqrafiya Təşkilatına üzv olunması, Azərbaycan Respublikasının ərazi sularında gəmilərin hərəkətinin bölünmə sisteminin (GHBS) layihəsini təkmilləşdirərək Beynəlxalq Dəniz Təşkilatı tərəfindən bəyənilməsi, gəmilərdən tullantıların qəbul edilməsi məsələsinin tənzimlənməsi üzrə görülən tədbirlər müzakirə edilib, qurumlararası əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb. Görüş iştirakçıları müzakirə olunan məsələlərlə bağlı görüləcək işlərin sürətləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıblar.

Dövlət Dəniz Administrasiyası tərəfindən hazırlanmış "Beynəlxalq Dəniz Təşkilatının Alətlərinin Tətbiqinə dair Strategiya 2016 – 2021" haqqında təqdimat nümayiş olunub. Dörd strateji hədəfi – beynəlxalq dəniz konvensiyalarının milli qanunvericiliyə inkorporasiyası, dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi, dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması, dəniz nəqliyyatı sektorunun işgüzar fəallığının və dinamik inkişafının təmin edilməsini özündə əks etdirən strategiya barədə təqdimat görüş iştirakçılarının marağına səbəb olub. Təqdimatın nümayişi zamanı strateji hədəflərin məqsədləri, məqsədlərə nail olmaq üçün qarşıya qoyulan vəzifələr, həyata keçirilən tədbirlərin qiymətləndirilməsi üzrə fəaliyyət göstəriciləri, normativ–hüquqi aktların tətbiqinə dair tədbirlər barədə ətraflı məlumatlar görüş iştirakçılarının diqqətinə çatdırılıb.

# "TAP-IN ARXASINDAKI QARANLIQ OYUNLAR"

***Son günlərdə İtaliyada Azərbaycana və TAP layihəsinə qarşı aparılan təxribat kampaniyasının arxasında dayanan səbəblərlə bağlı İtaliyanın nüfuzlu "Il Giornale" qəzetində "TAP-ın arxasındakı qaranlıq oyunlar" adlı məqalə dərc edilib. Məqalənin müəllifi "Nodo di Gordio" "beyin mərkəzi"nin baş tədqiqatçısı professor Andrea Marçiglianodur. Məqalənin xülasəsini təqdim edirik.***




Azərbaycan yataqlarından çıxarılan təbii qazı İtaliyaya nəql edəcək Trans-Adriatik (TAP) qaz kəməri layihəsi ətrafında qəribə "küləklər" əsir. Qəribə və təhdidedici küləklər. TAP İtaliyanı, daha dəqiqliklə desək, təyinat nöqtəsi olan Puliyanı bütün Avropaya qaz paylamaq imkanlarına malik olacağı səbəbindən mühüm strateji qovşağa çevirəcək. Böyük əhəmiyyətə malik olan bu qaz kəməri hətta Avropa İttifaqı tərəfindən "Birgə maraq layihəsi" statusuna layiq görülərək Avropa İttifaqının enerji siyasətinin strateji məqsədlərinə xidmət edəcək 12 prioritet "dəhliz"dən biri olan "Cənub" qaz dəhlizinin mühüm hissəsini təşkil edir. Bundan başqa, TAP-ın tikinti xərclərinin böyük hissəsi "Şahdəniz-2" yatağını idarə edən Azərbaycan konsorsiumu tərəfindən təmin ediləcək. Ətraf mühitə təsirlərin qiymətləndirilməsi göstərir ki, layihə yüksək ekoloji göstəricilərə malikdir.

TAP qaz kəməri vasitəsilə yaxın zamanda il ərzində 10 milyard kubmetr, daha sonra isə 20 milyard kubmetr qazın nəqli üçün bütün məsələlər qaydasında olmalıdır. Bu infrastrukturun strateji əhəmiyyətini dərk etmək çətin deyil. Belə ki, bu layihənin reallaşması həm Puliya iqtisadiyyatına, həm də ümumilikdə bütün İtaliya sənayesinə böyük fayda gətirəcək. Unutmaq lazım deyil ki, məhz TAP sayəsində İtaliya Azərbaycan qazını Avropaya daşımaqla strateji qovşağa çevriləcək və nəhayət ki, adi bir idxalçı ölkə kimi aşağı status vəziyyətindən çıxacaq.

Bütün bu üstünlüklərə baxmayaraq, "kimsə" layihənin həyata keçirilməsini əngəlləməyə cəhd göstərir. Əvvəllər "Puliyanın gözəl sahili dağıdılacaq", "Zeytun ağacları kəsiləcək" kimi ekoloji bəhanələr ekoloji təsirin elmi cəhətdən dəyərləndirilməsinin üzə çıxması ilə puça çıxdı. Daha sonra Puliya regionunun rəhbəri Mikele Emilliano kəmərin Leççedən deyil, Brindisidən keçməyini təklif edərək TAP-n marşrutundan şikayət etməyə başladı. Həyata keçirilməsi çətin olan bu təklif layihə üzrə işlərin bir neçə il təxirə salınmasına gətirib çıxaracaq və layihənin beynəlxalq səhmdarlarını boru kəmərinin marşrutunu dəyişdirməyə və onu bizim sahillərimizə doğru çəkməməyə məcbur edəcək.

Eyni zamanda, TAP-ın həyata keçirilməsi üçün vacib şərt olan İtaliya ilə Azərbaycan arasında mövcud əla münasibətlərə zərbə vurmağa yönələn böyük media hücumu başlayıb. Bu media hücumu əsasən guya Bakının ifadə azadlığı və insan haqlarını sistematik şəkildə pozması tezisi üzərində qurulub. Lakin unudulur ki, İtaliyanın Azərbaycandakı səfiri Canpaolo Kutillonun dediyi kimi, Azərbaycan bütün dini və mədəni azadlıqların hüquqları təmin edilən dünyəvi bir dövlətdir və bu ölkə Qərb tipli siyasi-institusional modelin qurulması istiqamətində önəmli dövlət quruculuğu prosesi yaşayır. Digər tərəfdən, Roma-Bakı münasibətlərinə zərbə vurmağa çalışanların liberal demokratiya nümunəsi olmayan, tolerantlıq və multikulturalizmdən uzaq dövlətlərlə İtaliyanın mövcud iqtisadi münasibətlərinə dair susqunluq nümayiş etdirməsi təəccüb doğurur.

Bu qaranlıq məsələdən başqa sual ediləsi digər məsələ Roma və Bakı arasındakı münasibətlərin korlanmasından kimlərin bəhrələnə biləcəyi və xüsusilə də kimlərin TAP-ın reallaşmamasında maraqlı olmasıdır. Çoxlu fərziyyələr mövcuddur və böyük ehtimalla bu, İtaliya Demokratik Partiyasının daxilində gedən dar maraqların qəliz torunun mövcudluğu ilə bağlıdır. Daha qəliz olanlar isə itibaxışlı siyasi və iqtisadi maraqlara malik beynəlxalq "güclər"dir. O güclər ki, qaz bazarında İtaliyanın mövcud böyük oyunun fəal iştirakçısı olmasını istəmirlər və ölkəni ağır şərtlərə tabe olmağa məcbur edirlər.

# DÜNYANIN ON ƏN BÖYÜK KONTEYNER ŞİRKƏTLƏRİNDƏN BİRİ OLAN "HANJİN SHİPPİNG" ŞİRKƏTİ İFLASA UĞRAYIB

***Dəniz konteynerlərinin daşınmasında yaranan böhranın dərinləşməsi artıq bütün dünya iqtisadiyyatı üçün ciddi siqnaldır. Əslində, dünya iqtisadiyyatında mühüm rol oynayan konteyner daşınmasının azalması dünyada beynəlxalq ticarətin həcminin azalmasından xəbər verir.***







Dəniz nəqliyyatında daşımalarla yanaşı, artıq dəmir yolu və aviasiya ilə də yük daşınmalarında azalmalar müşahidə edilməkdədir. Ekspertlər də limanlardakı yüzlərlə boş vaqon və konteynerlərə istinadən böhranın digər sektorlara nüfuz etdiyini bildirirlər. Bu ilin avqustunda Cənubi Koreyanın dünyanın on ən böyük konteyner şirkətlərindən biri olan "Hanjin Shipping" şirkəti iflasa uğrayıb.

Burada söhbət konteyner nəqliyyatı sahəsində ən böyük iflasdan gedir. Nəticə isə göz önündədir: şirkətin müştəriləri 14,5 milyard dollar dəyərində yükdən məhrum olub. Səbəb isə, sadəcə, yük qəbul edəcək limanın ödəniş edilməyəcəyindən ehtiyatlanaraq yükü qəbul etməməsidir. Xatırladaq ki, təşviş doğuran xəbər təkcə "Hanjin Shipping" şirkəti ilə yekunlaşmır. Dünyanın digər iri konteyner şirkətləri də artıq fəaliyyətlərində yaranmış tənəzzüllə bağlı həyəcan təbili çalmağa başlayıblar. Bu sıraya Yaponiya və Fransanın yükdaşıma şirkətləri də daxildir. Belə ki, İngiltərənin qiymətləndirmə agentliyi olan "Drewry" konteyner sənayesinin bu ilə 10 milyard dollar zərərlə üzləşdiyi barədə məlumat yayıb.

Qeyd edilməlidir ki, Cənubi Koreya şirkətinin iflası bu sahədə zəncirvari reaksiyaya səbəb olmaqdadır. Belə ki, artıq ölkənin başqa böyük yükdaşıma şirkəti - "Daewoo Shipbuilding & Marine Engineering" də sifarişsiz qalıb. Təkcə ötən il bu şirkətə gələn sifarişlərin ümumi həcmi 87 faiz azalıb. Qeyd edilməlidir ki, ümumi azalmalar təkcə bu ölkələrin şirkətlərində nəzərə çarpmır. Məsələn, ötən ay Danimarkanın yükdaşıma üzrə ixtisaslaşan "Moeller-Maersk" şirkəti də sifarişlərdə 44 faizdən çox azalma olduğu barədə məlumat yayıb. Şirkət rəhbərliyinin bildirdiyinə görə, hazırda yaşanan böhran 2008-ci ilin iqtisadi böhranından da ciddi vəziyyət almaqdadır. Yəni heç həmin böhran dövründə də, şirkət belə pis vəziyyətlə üzləşməmişdi. Analitiklərin bildirdiyinə görə, bu azalma konteyner daşınması üzrə ticarət və sifarişlərə ifrat dərəcədə təsir edə bilər.

Bu sahədə ticarət və sifarişləri yenidən bərpa etmək üçün illər lazım olacaq. Qeyd edək ki, konteyner nəqliyyatı sahəsində vəziyyət iki həlledici amillə təsirsiz ötüşməyib. Bunlardan birincisi, dünya ticarətinin 2008-ci il maliyyə böhranının təsirindən hələ də qurtula bilməməsidir. Unutmaq lazım deyil ki, dünya ticarət yüklərinin daşınmasının təqribən üçdə ikisi məhz konteyner gəmiləri tərəfindən həyata keçirilib. İkinci səbəb isə, zəif iqtisadi artım və bir çox ölkələrdə ticarətin tədricən liberallaşmasıdır ki, bu da yerli bazarlarda istehsalın lokallaşdırılması ilə müşahidə olunur.

Ümumdünya Ticarət Təşkilatı 2015-ci ildə dünya ticarətində 10 faiz real eniş olduğunu etiraf edərək, cari ildə daha çox azalma gözlənildiyini, bunun II Dünya müharibəsindən sonra ilk dəfə müşahidə edildiyini qeyd etmişdi. Dünya ticarətindəki azalmanı "dramatik hal" kimi dəyərləndirən təşkilatın baş direktoru Roberto di Azevedu vəziyyəti düzəltmək üçün təcili hərəkətə keçməyə çağırış edib.

*Ağasəf Babayev*



## "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin reallaşması istiqamətində işlərin sürətləndirilməsi məsələləri müzakirə olunub

***"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması istiqamətində işlərin sürətləndirilməsi məsələləri müzakirə olunub.***

Müzakirələr noyabrın 29-da Bakıda "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovla İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, İran-Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Mahmud Vaezi arasında görüşdə aparılıb.

Görüşdə Naxçıvan-Culfa-Təbriz-Tehran-Məşhəd marşrutu ilə hərəkət edəcək beynəlxalq sürət qatarının istifadəyə verilməsi üçün təşkilati işlərin həlli, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması istiqamətində işlərin sürətləndirilməsi məsələləri müzakirə olunub.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov çıxış edərək iki ölkə Prezidenti arasında yaranmış çox səmimi münasibət nəticəsində ölkələrimiz arasında əlaqələrin daha da gücləndirilməsindən, Azərbaycan Dəmir Yolunda həyata keçirilən layihələrdən, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması prosesində görülən işlərdən, Naxçıvan-Culfa-Təbriz-Tehran-Məşhəd marşrutu ilə hərəkət edəcək beynəlxalq sürət qatarının istifadəyə verilməsi məsələlərindən danışıb. Bildirib ki, sözügedən marşrut iki ölkə arasında həm dəmir yolu, həm də turizm əlaqələrinin davamlı inkişafına da dəstək olacaq.

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, İran-Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Mahmud Vaezi çıxış edərək, Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometrlik dəmir yolunun çəkilişinin başa çatmasını, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Azərbaycan tərəfinin gördüyü işləri yüksək dəyərləndirib.

İkitərəfli əməkdaşlığın bundan sonra daha da genişləndirilməsi qərara alınıb.



## "Şimal-Cənub" dəhlizi ilə daşınmaları inkişaf etdirmək niyyətindədirlər

***"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və "TransKonteyner" Publik Səhmdar Cəmiyyəti (PSC) "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə intermodal daşınmalar üçün əlverişli şəraiti inkişaf etdirmək niyyətindədirlər.***

Bu fikir Bakıda "Strateji tərəfdaşlıq 1520: dünyanın dörd tərəfini birləşdirən Xəzər regionu" mövzusunda biznes forum çərçivəsində "TransKonteyner" PSC ilə "Azərbaycan Dəmir Yolları" ASC arasında imzalanmış əməkdaşlıq haqqında Memorandum barədə "TransKonteyner"in şərhində yer alıb.

Həmin sənədə görə, tərəflər "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə intermodal daşınmalar üçün əlverişli şəraiti inkişaf etdirmək, bu məqsədlə innovativ texnologiyalardan və kombinasiyalı nəqliyyat imkanlarından faydalanmaq niyyətindədirlər. Bundan əlavə, tərəflər ixracat, idxalat, eləcə də tranzit yollarda yüklərin daşınması keyfiyyətini yaxşılaşdırmağı planlaşdırırlar.

Bu əməkdaşlıq tərəflərin iştirakı ilə xarici ticarət yüklərinin daşınması logistikası sahəsində aktual informasiya mübadiləsini, konteyner qatarları vasitəsilə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə əlavə yük axınlarının cəlb olunması və bu meylin inkişaf etdirilməsi üzrə təkliflərin hazırlanmasını və həyata keçirilməsini, dəmir yolu nəqliyyatı yüklərinin daşınması sahəsində birgə marketinq tədqiqatlarının aparılmasını nəzərdə tutur.

Xatırladaq ki, "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən Memorandumu sədrin müavini Vüsal Aslanov, "TransKonteyner" PSC adından baş direktor Pyotr Baskakov imzalayıblar.





## Forumda Bakı Limanı və Azad Ticarət Zonası barədə məlumat verilib

***Pekində keçirilən Mərkəzi Asiyada "Bir Kəmər, Bir Yol və Stabillik, İnkişaf" mövzusunda olan forumda Bakı Limanı və Azad Ticarət Zonası barədə məlumat verilib.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktorunun logistika məsələləri üzrə müşaviri Tural Əliyev Çin Xalq Respublikasında Mərkəzi Asiyada "Bir Kəmər, Bir Yol və Stabillik, İnkişaf" mövzusunda olan forumda iştirak edib.

İki hissədən ibarət olan forumun birinci hissəsi geniş diskussiyalar altında Şanxay şəhərində keçirilib. Forumun Pekin şəhərində keçirilən ikinci hissəsində isə Tural Əliyev "Bir Kəmər, Bir Yol" layihəsi çərçivəsində Azərbaycanda mövcud infrastruktur və bu yolda vacib əhəmiyyətə malik olan Bakı Limanı və Azad Ticarət Zonası barədə məlumat verib.

# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)

### Qabaqcıl sərnişin gəmisi

Bağırov adına sərnişin gəmisinin staxanovçu heyəti keçən il sosializm yarışını hər tərəfli genişləndirərək illik dövlət planını iki ay qabaq başa çatdırdı. Qazanılan müvəffəqiyyətlər “Qafur Məmmədov”, “Krasnodar”, “Minsk”, “Voronej”, “Akademik Krılov” və bir sıra başqa qabaqcıl gəmi heyətlərinin təşəbbüslərinin geniş tətbiq edilməsi nəticəsində olmuşdur.

“Qafur Məmmədov” gəmisi heyətinin təşəbbüsünə qoşularaq gəmidə 3 əla gəmi növbəsi təşkil olundu. Kapitanın baş köməkçisi Cabbar Haşumov yoldaşın növbəsində çalışan dənizçilər dəniz işarələrini, texniki istismar və gəmi sürmək qaydalarını öyrənir və onlara təhkim olunmuş göyərtə mexanizmlərini saz halda saxlayırlar. Onun növbəsində işləyən dənizçilər gəmini düz istiqamətdə sürürlər. Matroslardan Əliyev və Qlebov materialları qənaətlə işlədir və alətlərin saz olmasına həmişə ciddi fikir verirlər.

Gəmi Bakı-Həştərxan səfərinə çıxmışdı. Hava qaranlıqlaşırdı. Dalğalar gəmini asta-asta yırğalayırdı. Bu zaman verilən həyəcan dənizə adam düşdüyünü bildirdi. Göyərtədə olan dənizçilər qayıqlardan birini suya salaraq dənizə düşmüş adamı cəld gəmiyə çıxardılar... Göstərdikləri igidliyə görə gəminin kapitanı Haşımov yoldaşın əla gəmi növbəsinə təşəkkür elan etdi.

Üçüncü mexanik Kiselyov yoldaşın əla gəmi növbəsi də qabaqcıl növbələrdəndir. Təcrübəli mexanik növbə üzərində iş zamanı maşın şöbəsində, işdən sonra isə qırmızı guşədə mexanizmlərin texniki istismarı qaydaları haqqında məşğələlər keçirir. Buna görədir ki, bütün matorçular və ocaqçılar mexanizmləri, armaturları saz halda saxlayır və onların fasiləsiz işləmələrini təmin edirlər. Bu növbədə hər səfərdə yanacağa və sürtkü yağlarına 3-8 faiz qənaət edilir.

Gənc mexanikin başçılıq etdiyi əla gəmi növbəsi mexanizmləri və qurğuları sosialist müdafiəsinə götürmək haqqında Akademik Krılov adına gəmi heyətinin təşəbbüsünə birinci qoşuldu. Bütün köməkçi mexanizmləri sosialist mühafizəsinə götürən bacarıqlı mexanikin əla gəmi növbəsi mexanizmlərə ilk gündən nümunəvi qulluq edir və onların saat mexanizmləri kimi işləmələrini təmin edir.

Cabbar Haşumov və Kiselyov yoldaşların əla gəmi növbələri 7 aydır ki, gəmiçiliyin keçici vımpelini əllərində möhkəm saxlayırlar.

“Voronej” gəmisi heyətinin vətənpərvər çağırışına qoşulan maşın komandası (baş mexaniki Rakeviç yoldaşdır) ilin axırınadək yanacağa 70 ton və sürtkü yağlarına bir ton qənaət etməyi öhdəsinə götürmüşdü.

İkinci mexanik Markov və üçüncü mexanik Kiselyov yoldaşların növbələrində çalışan dənizçilər arasında fərdi sosializm müqaviləsi bağlandı. Hər səfərdə yanacağa və sürtkü yağlarına qənaət edən dənizçilər bu yarışın köməyilə böyük istehsalat qələbələri qazandılar. Onlar əməyə sosialist münasibəti göstərərək bütün il ərzində yanacağa 110 ton və sürtkü yağlarına 4,5 ton qənaət etmişlər.

Gəmidə mexanizmlərin texniki istismar qaydalarını öyrənmək məqsədilə dərnək təşkil olunmuşdur. Bu dərnəyə ikinci mexanik Markov yoldaş rəhbərlik edir. Maşın komandası mexanizmlərin gücündən tam istifadə etdiyi üçün hər səfərdə vaxta bir saatdan artıq qənaət edilir. Gəminin göyərtə komandası da hər səfərdə yanalma əməliyyatına 30-45 dəqiqə qənaət edir.

Gəminin illik planı vaxtından qabaq ödəməsinin və ilin axırınadək plandan əlavə səfərlər etməsinin ən başlıca səbəblərdən biri də gəmidə təmir işlərinin bir hissəsinin komandanın öz qüvvəsilə görülməsidir.

Maşın və göyərtə komandalarının baş mühərriklərə və göyərtə mexanizmlərinə yaxşı qulluq etməsi nəticəsində dənizçilər zavod təmirinə dayanmadan 1950-ci ilin naviqasiyasını müvəffəqiyyətlə başa çatdırmışlar.

Gəminin partiya təşkilatının (katibi Ağasiyev yoldaşdır) partiya siyasi işi istehsalat məsələlərilə düzgün əlaqələndirilməsi nəticəsində burada kommunistlərin fəallığı və təşəbbüsü artmış, bitərəf fəallar arasında siyasi-tərbiyə işi genişləndirilmiş və kadrların yetişdirilməsi, tərbiyə edilməsi və irəli çəkilməsi işinə xeyli fikir verilmişdir.

1950-ci ildə 8 nəfər matrosun, 10 nəfər matorçunun və bir nəfər radioçunun ixtisası artırılmışdır.

Gəminin staxanovçu heyəti 1951-ci ilə yeni təsərrüfat ilinə qədəm qoyduğu gündən səfər tapşırıqlarını yenə də artıqlamasilə yerinə yetirir.

***Bağırov adına gəminin kapitanı D. Dadaşov,***
***“Qaspi bolşeviki” qəzeti, № 4 (2620), 12 yanvar 1951-ci il***

### Təmirçilərin şair Səməd Vurğunla görüşü

Mayın 12-də Xəzərin ən böyük müəssisələrindən biri olan “Paris Kommunası” zavodu təmirçilərinin iki dəfə Stalin mükafatı laureatı, şair Səməd Vurğunla görüşü olmuşdur. Görüşdə iştirak edən fəhlələr, mühəndis-texnik işçilər və qulluqçular şairi səmimi qarşılamışlar.

Səməd Vurğun yoldaş təmirçilər qarşısında çıxış edərək bolşeviklər partiyasının, sovet hökumətinin, şəxsən böyük müəllimimiz Stalin yoldaşın gündəlik qayğısı sayəsində Azərbaycan sovet ədəbiyyatının qazandığı nəaliyyətlərdən və yazmaqda olduğu yeni əsərlərdən danışmışdır.

Şair Səməd Vurğunun çıxışından sonra zavodun adlı-sanlı çilingərlərindən Xaritonov yoldaş çıxış etmişdir. O, çıxışında şair və yazıçılarımızı, o cümlədən Səməd Vurğunu hövzəmizin dənizçiləri, limançıları və gəmi təmir edənləri həyatından yeni əsərlər yazmağa çağırmışdır.

Xaritonov yoldaşdan sonra çıxış edən başqa təmirçilər də şairin ayrı-ayrı əsərləri haqqında öz fikirlərini söyləmişlər.

Sonra, Səməd Vurğun öz əsərlərindən bir neçəsini oxumuşdur. Görüşdə şairlərdən İ. Orotovski, Y. Fidler və İ. Volobuyeva yoldaşlar da iştirak etmişlər. Onlar da öz yeni əsərlərindən və Azərbaycan yazıçılarının rus dilinə tərcümə edilmiş əsərlərindən bir neçəsini oxumuşlar.

***“Qaspi bolşeviki” qəzeti, № 39 (2655), 16 may 1951-ci il***

### Xəzərçilərin hədiyyəsi

Xəzərin mühəndisləri Vladivostok limanı yenilik yaradanlarının vətənpərvər təşəbbüsünə qızğın tərəfdar çıxaraq, kommunizmin böyük tikintiləri fonduna öz hədiyyələrini verirlər.

Xəzər dəniz yolları idarəsinin mühəndisi Yegizarov yoldaş Xəzərin şimal rayonlarında və Volqanın aşağılarında, habelə Volqa-Don kanalı tikilib qurtardıqdan sonra açılacaq yeni su yolları ilə neft daşıya bilən yeni, suya oturma dərəcəsi azaldılmış gəmi layihəsi hazırlamışdır.

Mühəndis Qalkin yoldaş yerqazıyan gəminin texniki istismarını yaxşılaşdıran, köfşəkləşdirici maşının təkmilləşdirilməsi işini yaxın vaxtlarda başa çatdıracaqdır.

Mühəndis Loqunov yoldaş qəza işığının avtomatik işə salıcısının layihəsi üzərində işləməkdədir.

Bu yeniliklərin tətbiqi nəticəsində dövlət vəsaitinə ediləcək böyük qənaət nəhəng elektrik su stansiyaları və kanalların inşasına sərf olunacaqdır.

***“Qaspi bolşeviki” qəzeti, № 40 (2656), 18 may 1951-ci il***

### Saatlıq cədvələ rəayət etməli

Xəzər neftdaşıma gəmiçiliyinin dənizçiləri Stalin yoldaşa göndərdikləri məktubla illik planı vaxtından əvvəl yerinə yetirməyi və ilin axırına qədər plandan əlavə 70 min ton neft məhsulu daşımağı öhdələrinə götürmüşlər. Hazırda donanmanın qabaqcıl gəmi heyətləri vədi ləyaqətlə yerinə yetirmək uğrunda yorulmadan mübarizə edirlər.

Rəhbərə verilmiş vədin şərəflə yerinə yetirilməsini təmin edən əsas amillərdən biri də neftdaşıyan gəmilərin saatlıq cədvəllə işləmə üsuluna keçməsidir.

Donanmanın 18 gəmisində saatlıq cədvəl tətbiq olunmaqdadır.

Saatlıq cədvəllə işin yaxşı təşkil olunduğu gəmilərin iş təcrübəsi göstərir ki, bu üsulla işləmək planların artıqlamasilə yerinə yetirilməsini təmin etməkdə mühüm şərtlərdən biridir.

İyun ayının birindən 20-nədək saatlıq cədvəllə işləyən Ağamalı oğlu adına gəmi yolgetmə vaxtına 13,7 saat qənaət etməklə, bir saat olsun belə boşdayanmaya yol verməmiş, hər ton-milin planda nəzərdə tutulan maya dəyərini 0,128 qəpik aşağı salmışdır. Jdanov adına gəminin fədakar dənizçiləri həmin müddətdə yolgetmə vaxtına 18 saat qənaət etməklə, ton-milin mal dəyərini 0,78 qəpik aşağı salmışlar. Lakin gəmi meteoroloji şəraitin əlverişli olmaması üzündən 2,6 saat, Həştərxan reydində barj gözləmək üçün isə 18,6 saat vaxt itirmişdir.

Həzi Aslanov adına gəminin dənizçiləri yenə həmin müddətdə yolgetmə vaxtına 11,6 saat qənaət edərək, ton-milin maya dəyərini 0,5 qəpik aşağı salmışlar. Bu gəmi də meteoroloji şəraitə görə 1,6 saat, Həştərxan reydində barj gözlərkən isə 6,8 saat itirmişdir.

Kirov adına neftdaşıyan gəminin şəxsi heyəti saatlıq cədvəllə işləyərək böyük nəaliyyət əldə etmişdir. Bu gəminin dənizçiləri iyun ayının birinci 20 günündə yolgetmə vaxtına 14,3 saat vaxt sərf edərək ton-milin maya dəyərini 16,78 qəpik aşağı salmışlar. “Aziya” gəmisinin dənizçiləri də həmin müddətdə 11,6 saat istismar vaxtına qənaət etmiş və ton-millin maya dəyərini 2,35 qəpik aşağı salmışlar.

Gəmiçiliyin Molotov adına, Syurupa adına və “ÜİK(b)P” gəmilərinin heyətləri, habelə kiçik tonnajlı donanmasının dənizçiləri də saatlıq cədvəllə işləyərək xeyli müvəffəqiyyət qazanmışlar.

Lakin gəmiçilikdə saatlıq cədvəllə işləyən bəzi gəmi heyətləri öz üzərlərinə götürdükləri vəzifələri yerinə yetirmirlər. Beriya adına gəmi iyun ayının 20 günündə 39,1 saat yolgetmə vaxtı itirmiş, ton milin maya dəyərinin 1,25 qəpik artmasına yol vermişdir. V. Çkalov adına gəmi 21,8 saat vaxt itirmiklə ton-milin maya dəyərini 0,52 qəpik artırmışdır. A. Caparidze adına gəmi yolgetmədə 26,2 saat vaxt itirmiş, maya dəyərini 4,63 qəpik bahalatmışdır, “Volqa” gəmisi də həmin müddətdə 18 saat vaxt itirərək, maya dəyərinin 1,08 qəpik artmasına yol vermişdir.

Bütün bunlar göstərir ki, bir sıra gəmilərdə saatlıq cədvəllə işlərkən qazanılan müvəffəqiyyətləri möhkəmlətməkdən ötrü ardıcıl mübarizə aparılmır. Misal üçün, “Volqa” gəmisi yüksüz olaraq yol gedərkən 4,3 saat və yükboşaldarkən isə 0,3 saat qənaət etdiyi halda, köməkçi əməliyyat zamanı 17,3 saat vaxt itirmişdir. “Raboçi” gəmisi yüklə yol getdiyi zaman 9,6 saat, yük boşaldarkən 4,3 saat qənaət etmişsə də, yüksüz yol gedərkən 7 saat, köməkçi əməliyyat zamanı isə 10,7 saat vaxt itirmişdir.

Beləliklə, bir sıra gəmilərdə işin yaxşı qurulmaması və saatlıq cədvələ düzgün əməl edilməməsi nəticəsində bütün gəmiçilikdə 20 gün ərzində 177,2 saat istismar vaxtı itirilmişdir. Bundan başqa, Reyd neftdaşıma gəmiçiliyinin təqsiri üzündən Xəzər neftdaşıma donanmasının gəmiləri həmin müddətdə 309,6 saat, meteoroloji şəraitin əlverişli olmaması nəticəsində isə 94,5 saat vaxt itirmişlər.

Yolgetmə vaxtının itirilməməsi üçün gəmiçiliklə lazımi tədbirlər görülmür. Gəmiçilik rəisinin istismar üzrə müavini Dimitrioyev, baş dispetçer Dedov və plan şöbəsinin rəisi Ağacanov yoldaşlar qabaqcıl gəmi heyətlərinin iş təcrübəsinin geniş yayılması, bu təcrübənin ümumiləşdirilərək başqa gəmilərdə tətbiq edilməsi üçün heç bir təşəbbüs göstərmir, geridə qalan gəmilərin işindəki nöqsanları aradan qaldırmaqdan ötrü lazımi tədbir görmürlər.

Xəzər neftdaşıma gəmiçiliyinin rəhbərləri saatlıq cədvəllə işləyən gəmilərin işinə xüsusi diqqət yetirməli, boşdayanmalara, habelə yolgetmə vaxtının itməsinə yol verməmək üçün ciddi tədbirlər görməli, yükdaşımanın maya dəyərini aşağı salmaqdan ötrü bütün imkanlardan istifadə edilməsini və beləliklə neftdaşıyan dənizçilərin Stalin yoldaş qarşısında götürdükləri vədlərin ləyaqətlə yerinə yetirilməsini təmin etməlidirlər.

***X. Saakov,***
***“Qaspi bolşeviki” qəzeti, № 53 (2669), 4 iyul 1951-ci il***

## “DƏNİZ” 85




### Nəslən dənizçi

Xəzər donanmasının dənizçiləri, mühəndis-texnik işçiləri və qulluqçuları, Bakı limanının, Əli Bayramov adına fabrikanın, Xəzər dəniz yolları idarəsinin və Xəzər su səhiyyə idarəsinin kollektivləri Xəzər donanmasının rəisi İ. P. Muxin yoldaşı 7 nömrəli Caparidze seçki dairəsi üzrə Azərbaycan SSR Ali Sovetinə deputatlığa yekdilliklə namizəd irəli sürmüşlər.

Nikolay Pavloviç Muxin 1914-cü ildə Ryazanski vilayəti Boluşevi-Poçinki kəndində anadan olmuşdur. Bir az keçdikdən sonra bütün ailə Bakıya gəlir və 1922-ci ildə Muxin yoldaş məktəbə daxil olur. O, tələbə sifətilə əhali arasında savadsızlığın ləğv edilməsi işində fəal iştirak edir. Məktəbdə onu Lenin komsomolu sıralarına qəbul edirlər.

1930-cu ildə illik məktəbi qurtararaq Nikolay Pavloviç Muxin yoldaş Bakı dənizçilik texnikumunun gəmi mexanik şöbəsinə daxil olur. Burada onu qrup komsomol təşkilatçısı və texnikum komsomol komitəsinin üzvü seçirlər.

1934-cü ildə, texnikumu qurtardıqdan sonra gənc mexanik Zaqfederasiya adına gəmi təmiri zavoduna göndərilir. O, əvvəllər rəis köməkçisi, sonra isə iş bölüşdürən bürosunun rəisi vəifələrində çalışır. Muxin yoldaş bu məsuliyyətli sahədə var qüvvəsilə çalışır və iş uğrunda bütün ehtiras və energiyası ilə mübarizə aparır. Əməyə öz məhəbbəti və ictimai işi istehsalatla əlaqələndirməyi bacararaq o, kollektivin hörmətini qazanmağa nail olur. Komsomolçular onu, komsomol komitəsinin katibi seçirlər. Az keçmədən onun rəhbərliyi altında zavodun komsomolçuları gəmi təmirinin sürətlə aparılması uğrunda mübarizədə qabaqcıllar sırasında gedirlər.

1938-ci ildə dənizçilərin həmkarlar ittifaqı konfransında Nikolay Pavloviç Muxin yoldaş həmkarlar ittifaqının rayon komitəsi sədri seçilir.

1939-cu ildə N. P. Muxin yoldaş ÜİK(b)P sıralarına daxil olur. Müharibədən əvvəl partiya onu Xəzər neftdaşıma gəmiçiliyinə siyasi şöbə rəisinin müavini vəzifəsinə göndərir. Böyük vətən müharibəsi günlərində Muxin yoldaş ordu sıralarında xidmət edir, sonra yenə də Xəzər neftdaşıma donanmasının siyasi şöbəsində işləməyə keçirilir.

Bir az keçdikdən sonra Muxin yoldaş SSR İttifaqı Dövlət nəzarət Nazirliyinin Xəzər hövzəsi üzrə baş nəzarətçisi işləyir.

1950-ci ilin aprelində Muxin yoldaş Xəzər quru yükdaşıma donanmasının rəisi təyin olunur və hazırda da bu vəzifədə çalışır.

Muxin yoldaş rəhbər partiya, həmkarlar ittifaqı və komsomol orqanlarına dəfələrlə seçilir. Hazırda o, Bakı zəhmətkeş deputatları Sovetinin deputatı, Azərbaycan K(b)P Bakı şəhər və Voroşilov rayon komitələri plenumlarının üzvüdür.

Sovet hakimiyyətinin tərbiyə etdiyi, bolşeviklər partiyasının sadiq oğlu Muxin yoldaş qazanılan müvəffəqiyyətlərlə kifayətlənməyərək, vətənimizin xeyri üçün bütün qüvvə və bacarığını sərf edir.

Nəslən dənizçi – matros oğlu Muxin yoldaş dənizi sevir və onun işinin mürəkkəb şəraitini yaxşı bilir. Muxin yoldaş donanmaya bacarıqlı rəhbərlik edərək, qarşıya qoyulan vəifənin həllində bolşevik prinsipliyi və inadı göstərir. O, qayğıkeş rəis olduğu üçün də dəniçilərin böyük hörmət və ehtiramını qazanmışdır.

Muxin yoldaşın rəhbərlik etdiyi Xəzər quru yükdaşıma gəmiçiliyinin dənizçiləri Azərbaycan SSR Ali Sovetinə seçkilər gününü ləyaqətli qarşılamaq uğrunda yarışaraq yeni nəaliyyətlər qazanırlar. Onlar yanvarın 24-də aylıq yükdaşıma planını hər iki göstəricilər üzrə yerinə yetirmişlər.

Nikolay Pavloviç Muxin əzəmətli Stalin planlarının həyata keçirilməsi işinə öz qüvvə və bacarığını sərf edən ölkəmizin vətənpərvər oğullarındandır. Biz əminik ki, Muxin yoldaş seçicilərin etimadını şərəflə doğruldacaqdır.

**Vəkillər: “Pioner” gəmisinin kapitanı N. Semyonov,**
**Bağırov adına gəminin kapitanı D. Dadaşov,**
**Bakı limanının dispetçeri V. Arzumanova.**

***“Qaspi bolşeviki” qəzeti, № 9 (2625), 31 yanvar 1951-ci il***

### Nəcib təşəbbüsü geniş tətbiq etməli

Xəzər donanmasının dənizçiləri gəmiləri və gəmi mexanizmlərini sosialist mühafizəsinə götürmək haqqında Akademik Krılov adına gəminin dənizçilərinin təşəbbüsünə hələ keçən il qoşulmuşlar. Hazırda bu təşəbbüs bir çox gəmidə tətbiq olunmuşdur.

Öz gəmilərini sosialist mühafizəsinə götürən “Dağıstan”, “Komsomolçu”, Bağırov adına və başqa gəmilərin heyətləri öz sosialist təəhhüdlərini yerinə yetirərək yeni nəaliyyətlər əldə etmişlər. Onlar gəmilərin təmirarası istismar müddətini xeyli uzatmış, yanacağa və sürtkü yağlarına tonlarla qənaət etmişlər ki, bu da gəmilərin və gəmi mexanizmlərinin texniki vəziyyətinin və onlara xidmətin yaxşılaşdığını göstərir.

Akademik Krılov adına gəmi heyətinin təşəbbüsünün yayılmasında bir sıra mühüm nöqsanlar da vardır.

Gəmiçilik idarəsində istismar və mexanik-gəmi xidməti şöbələrinin işçiləri bir neçə gəmini sosialist mühafizəsinə verməklə öz vəzifələrini bitmiş hesab etmişlər. Onlar unudurlar ki, Akademik Krılov adına gəminin iş təcrübəsinin düzgün tətbiq edilməsi hər şeydən əvvəl gəmilərdə geniş təşkilat və izahat işlərinin aparılmasından, dənizçilərə öz yarış təəhhüdlərini ləyaqətlə yerinə yetirməkdən xeyli asılıdır.

Lakin, gəmiçilik idarəsinin mühəndis-texnik işçiləri gəmi heyətlərinə bu barədə lazımi köməklik göstərmirlər. Bunun nəticəsidir ki, bəzi gəmilərdə mexanizmlərin və qurğuların sosializm mühafizəsinə götürülməsi başdansovdu gedir. Bəzi gəmilərin komanda heyəti lazımi hazırlıq işləri aparmadan, hər bir heyət üzvünün bacarıq və biliyini öyrənmədən, mexanizm və qurğuların texniki vəziyyətini aşkara çıxarmadan, onların texniki və profilaktik yoxlama tədbirləri cədvəlini tutmadan dənizçilərlə müqavilə bağlayırlar.

Gəmiçilik idarəsi, ikitərəfli sosializm yarışı müqaviləsinə görə, gəmiləri lazımi ehtiyat hissələri və alətlərlə təmin etməyi öhdəsinə götürmüşdür.

Lakin buna əməl edilmir. Gəmilərdə hələ də kadrların dəyişilməsi, bir gəmidən o biri gəmiyə keçirilməsi davam edir. Keçən ilin noyabr ayından bu ilin yanvar ayınadək Bağırov adına gəmidə 10 nəfər dəyişilmişdir. Bu müddətdə “Komsomolçu”, Nizami adına və başqa gəmilərdə də kadrların axınına yol verilmişdir.

Gəmiləri sosialist mühafizəsinə götürməkdə “Pskov” gəmisi heyətinin təşəbbüsü ilə təşkil edilən gəmi texniki şuraları böyük rol oynayırlar. Baş mexanikin rəhbərliyi ilə təşkil olunan gəmi texniki şuraları mexanizm və qurğuların sosialist mühafizəsinə götürülməsi haqqında dənizçilərlə müntəzəm olaraq məsləhət və söhbətlər təşkil edirlər.

“Pskov” gəmisi dənizçilərinin bu təşəbbüsü Xəzər donanması dənizçiləri arasında geniş yayılmalıdır.

***B. Əliyev,***
***“Qaspi bolşeviki” qəzeti, № 20 (2635), 9 mart 1951-ci il***

### Sərnişin daşınılmasına nümunəvi hazırlaşmalı

Xəzər quru yükdaşıma donanmasının işində sərnişin daşınılması böyük rol oynayır. Bakı – Həştərxan dəniz yolu açıldıqda sərnişin daşınılması xüsusilə artır. Xəzər donanması sərnişin naviqasiyasının açılışına necə hazırlaşır?

Təəssüf ki, Xəzər donanmasında sərnişin naviqasiyasının açılışına aparılan hazırlıqda məsuliyyət hiss edilmir. Keçən il naviqasiyanın böyük gecikmə ilə açılmasından donanmanın rəhbərləri hələ də lazımi nəticə çıxarmamışlar.

“Moskva” sərnişin gəmisi Bakı-Həştərxan xəttində işləyəcəkdir. Hazırda gəmi donanmanın Bakı gəmi təmiri zavodunda təmirə dayanmışdır. Sərnişin naviqasiyası açılmasının yaxşılaşmasına baxmayaraq, burada təmir işləri yarıtmaz aparılır.

İki ay ərzində gəmi heyətinin öz qüvvəsilə bir sıra cari təmir işləri aparılmışdır. Lakin, bu müddət içərisində zavod tərəfindən isə hələ heç bir iş görülməmişdir.

Gəminin kapitanı İslam Məmmədov yoldaş deyir:

- Zavodun rəhbərləri “Moskva” gəmisinin planlı təmir cədvəlinə daxil olmamasını bəhanə edərək heç bir iş görmürlər. Gəmiyə təmirçi briqadalar təsadüfü hallarda göndərilir. Biz, təmir işlərini yalnız öz qüvvəmizlə aparırıq. Əgər təmir belə gedərsə, keçən ildəki kimi, cari ildə də sərnişin naviqasiyasının açılışı gecikdirilər.

Bu ilin naviqasiyasında “Türkmənistan” sərnişin gəmisinin də işləməsinə güman yoxdur. Bu gəmi üç ildir ki, Paris Kommunası adına zavodda təmirə dayanmışdır. Qeyd etmək lazımdır ki, həmin gəminin də təmiri ilk gündən yaxşı aparılmır. Zavod rəhbərlərinin işdə məsuliyyətsizliyi üzündən gəminin istismara verilmə müddəti dəfələrlə dəyişdirilmişdir.

***L. Teymurov,***
***“Qaspi bolşeviki” qəzeti, № 26 (2642), 30 mart 1951-ci il***

### Staxanov saatlıq cədvəllə işləməli

Qara dəniz donanması “Moskva” gəmisi heyətinin saatlıq cədvəllə işləmək haqqında təşəbbüsü Xəzər donanmasının gəmilərində geniş tətbiq olunmaqdadır.

Donanmamızda bu nəcib təşəbbüsə ilk dəfə qoşulan “Kabardinka”, Qafur Məmmədov adına, “Komsomolçu”, “Azərbaycanlı” və bir sıra başqa gəmilərin heyətləri gözəl iş nümunələri göstərirlər. Hazırda donanmanın gəmilərindən çoxu saatlıq cədvəllə işləyir.

Bir qayda olaraq gəmilər üzrə saatlıq cədvəl hər bir səfər üçün ayrıca olaraq tərtib edilir ki, bu da gəmilərə vurulan yüklərin növünü və hansı limanlar arası işləmələrini qabaqcadan öyrənməyi tələb edir.

Staxanov saatlıq cədvəllə işləməyi təmin etmək üçün gəmi kapitanları səfərə çıxmazdan əvvəl heyət üzvlərinin istehsalat müşavirəsini çağırır, planı ətraflı müzakirə edir, səfər tapşırığının müvəffəqiyyətlə başa çatdırılmasını və limanlarda yükcü briqadalarına sosialist köməyi göstərmək üçün lazımi tədbirlər görürlər.

Bu işdə “Kabardinka”, “Dunay” və bir sıra başqa gəmilərin heyətləri xüsusilə fərqlənirlər. Gəmiçilikdə birinci olaraq staxanov saatlıq cədvəlilə işləyən bu gəmilərin dənizçiləri keçən 8 ayın iş yekunları üzrə sosializm yarışında görkəmli yeri tutmuşlar. Hər iki gəminin qabaqcıl heyəti Böyük Oktyabr sosialist inqilabının 34-cü ildönümünü illik yükdaşıma tapşırıqlarını vaxtından qabaq yerinə yetirməklə qarşılamağa söz vermişlər.

“Kabardinka” gəmisində sentyabr ayının iş yekunları göstərir ki, burada əməyin düzgün təşkil edilməsi və gəminin saatlıq cədvəllə işləməsi nəticəsində parlaq nəaliyyətlər əldə edilmişdir. Heyət bir ay ərzində yolgetmə vaxtına 5 saat, yük vurub-boşaltma əməliyyatına 68 saat və s. işlərin aparılmasına 10 saatlarla qənaət etmişdir. Staxanov saatlıq cədvəllə işləyən komanda bütün səfər tapşırıqlarını vaxtında başa çatdırmış və xalq təsərrüfatı üçün 539 ton əlavə yük daşımışdır.

Plan uğrunda mübarizədə “Dunay” gəmisinin (kapitanı Andryanov yoldaşdır) heyəti də irəlidə gedir. Gəmidə göyərtə komandası ilə maşın komandası arasında sosializm yarışının yaxşı təşkil edilməsi gözəl nəticələr verir. Komanda aylıq yükdaşıma planını ton və tonmil üzrə vaxtından qabaq yerinə yetirdiyi üçün ÜİHİMŞ və Dəniz Donanması Nazirliyinin keçici vımpelini almağa müvəffəq olmuşdur.

Staxanov saatlıq cədvəllə işləyən “Azərbaycanlı” gəmisinin heyəti hər ay yükdaşıma planını artıqlamasilə yerinə yetirir. Komanda plandan əlavə daşıdığı yüklər hesabına kommunizmin möhtəşəm tikintiləri fonduna hər ay on min manatlarla vəsait verir.

Lakin qeyd etmək lazımdır ki, staxanov saat cədvəlilə işləmək donanmanın bir sıra gəmilərində yaxşı deyildir. “Kolıma” gəmisində (kapitan Moyseyev, baş mexaniki Tuzov yoldaşlardır) saatlıq cədvəl tətbiq olunmadığı üçün səfər tapşırıqları kəsirlə yerinə yetirilir. Donanma idarəsi tərəfindən dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, gəmi komandası yüklərin itkisiz daşınılmasına və yolgetmə saatının ixtisar edilməsinə və boş dayanmaların azaldılmasına lazımi fikir vermir.

Gəminin kapitanı Moyseyev yoldaş göstərilən nöqsanları aradan qaldırmalı və yükdaşıma planının müvəffəqiyyətlə yerinə yetirlməsini təmin etməkdə böyük rol oynayan saatlıq cədvəlin tətbiq olunmasına diqqət verməlidir.

Staxanov saatlıq cədvəli “ÜİLKKİ-nin 30 illiyi” gəmisində də yaxşı təşkil olunmamışdır. Komanda saatlıq cədvəl üzrə işləmədiyi üçün səfər tapşırıqları vaxtında yerinə yetirilmir. Gəminin kapitanı Beridze yoldaş işdə dönüş yaratmalı və gəminin tez bir zamanda saatlıq cədvəllə işləməsinə müvəffəq olmalıdır.

Donanmada staxanov saatlıq cədvəlin geniş tətbiq edilməsində dipetçer və başqa yardımçı şöbə işçilərinin də rolu böyük olmalıdır. Bu şöbələrin işçiləri gəmilərə gedərkən saatlıq cədvəlin tətbiq olunmasında gəmi komandalarına yaxından kömək etməlidirlər. Bu isə gəmiçilikdə hələ bugünədək lazımi qədər hiss olunmur.

Limanların yaxşı işləməmələri də çox vaxt saatlıq cədvəllə işləyən gəmilərdə boş dayanmaların əmələ gəlməsinə səbəb olur. Mahacqala və Bakı limanlarında “Kolıma”, Qafur Məmmədov adına, “Xatanqa”, “Pioner” və bir sıra başqa gəmilər vaxtında yüklənib-boşaldılmadıqları üçün çoxlu boş dayanma saatlarına yol verilir. Belə hallara Krasnavodsk limanında da rast gəlmək olar.

Donanmanın dənizçiləri illik planı vaxtından qabaq yerinə yetirməyi vəd etmişlər. Bu vədə ləyaqətlə əməl etmək üçün, hər şeydən əvvəl staxanov saatlıq cədvəlilə işləməyə ciddi fikir verməli və gəmilərin bir saat olsun belə səmərəsiz boş dayanmalarına yol verilməməlidir.

Söz yoxdur ki, göstərilən nöqsanlar tezliklə aradan qaldırılacaq və gəmilərin hamısı staxanov saatlıq cədvəllə işləyəcəkdir.

***A. Paper,***
***Xəzər donanmasının baş dispetçeri.***
***“Qaspi bolşeviki” qəzeti, № 79 (2695), 3 oktyabr 1951-ci il***

## Qəzanın başvermə səbəbləri dəqiq bilinməsə də ...

İndoneziyanın mal-qara daşınması ilə məşğul olan "Sinar Mutiara" adlı gəmisi dekabrın 5-də Yava dənizində, Madura adasının yaxınlığında batıb.

Dekabrın 6-da Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması İdarəsinin ərazi üzrə əlaqələndiricisi Pamekasa Budi Çahono bildirib ki, göyərtəsində 16 nəfərin olduğu gəminin qəzaya uğradığı yer hələlik tam dəqiqləşməyib.

ANTARA informasiya agentliyinin verdiyi məlumata görə, heyət üzvlərindən biri ailəsi ilə mobil telefon vasitəsilə son əlaqə zamanı gəminin Madura yaxınlığında batmaqda olduğunu deyib və kömək göndərilməsini xahiş edib. Məlumatda deyilir ki, dənizçinin ailə üzvləri kömək göstərilməsi üçün dərhal yerli hakimiyyət orqanlarına müraciət ediblər.

P.B.Çahono əlavə edib ki, yerli sakinlərin xilasedicilərlə birlikdə axtarışları hələlik heç bir nəticə verməyib. Qəzanın başvermə səbəbləri dəqiq bilinməsə də, gəminin hündür dalğa ilə qarşılaşdığı güman olunur.

Son həftə ərzində bu, Yava dənizində baş verən ikinci gəmi qəzasıdır. Ötən istirahət günlərində Karavanq rayonu yaxınlığındakı sularda baş vermiş qəzada yeddi balıqçı həlak olub, dördü isə itkin düşüb. Qərbi Yava əyaləti üzrə axtarış-xilasetmə idarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, yalnız üç nəfəri xilas etmək mümkün olub.

*Vüqar Ağayev*

## DƏNİZ VƏ SAHİLYANI ƏRAZİLƏRİN BİOMÜXTƏLİFLİYİ DƏ MÜZAKİRƏ MÖVZUSU OLACAQ



***Meksikada bioloji müxtəliflik haqqında Konvensiya tərəflərinin konfransı öz işinə başlayıb.***

BMT-nin saytı xəbər verir ki, iki həftə ərzində konfrans iştirakçıları kənd, meşə və balıqçılıq təsərrüfatının inkişaf strategiyası fonunda flora və fauna növlərinin itkisinin qarşısının alınması məsələlərini müzakirə edəcəklər.

BMT-nin baş katibi Pan Gi Mun konfrans ərəfəsində vurğulayıb ki, biomüxtəliflik insanların rifahında və davamlı inkişaf işində mühüm rol oynayır. "Biomüxtəlifliyin qorunması bizim ümumi gələcəyimiz üçün çox mühüm investisiyadır", - deyə Pan Gi Mun bəyan edib.

Yer üzündə biomüxtəliflik bugünkü və gələcək nəsillərin rifahı və iqtisadi inkişaf üçün mühüm əhəmiyyətə malikdir. Məsələn, mərcan riflərinin qlobal faydası ildə 30 milyard dollar qiymətləndirilir, beynəlxalq ticarətdə isə dərman bitkiləri ildə 60 milyard dollar gəlir gətirir. Bununla yanaşı, son illər biomüxtəlifliyin sürətlə itirilməsi müşahidə olunur ki, bu da Yer üzündə həyatı saxlayan biosferin qabiliyyətini ciddi şəkildə pozur.

Ekspertlər güman edirlər ki, insanların fəaliyyəti nəticəsində ətraf mühitin çirklənməsi, yaşayış məntəqələrinin genişləndirilməsi, növlərin həddindən artıq istismarı və iqlim dəyişiklikləri biomüxtəlifliyin azalmasına səbəb olan əsas amillərdir. Məsələn, kənd təsərrüfatı torpaqlarının 40 faizi 2050-ci ildə itiriləcək. Halbuki 2030-ci ilədək dünya əhalisini qida ilə təmin etmək üçün kənd təsərrüfatı istehsalını 50 faiz artırmaq lazımdır.

Konfransda dəniz və sahilyanı ərazilərin biomüxtəlifliyi də müzakirə mövzusu olacaq. Hesablamalara görə, mühüm dəniz ekosistemləri - sualtı çəmənlər, kolluqlar və mərcan rifləri 30 faizdən 35 faizədək dağıdılıb.

Bioloji müxtəliflik haqqında Konvensiya BMT-nin 1992-ci ildə Rio-De-Janeyroda ətraf mühit və davamlı inkişaf üzrə dünya sammitində hazırlanıb. Konvensiyanı 196 ölkə ratifikasiya edib.

*Tahir DADAŞOV*

## YARIZARAFAT, YARIGERÇƏK

**Heç bir işi tək görmürük. Yaxşı işlər görəndə Allah, pis işlər görəndə isə həmişə şeytan kömək edir.**

**Niyə bəziləri hətta quru adam təsiri də olsa, adam təsiri bağışlamır?**

**Başqaları ilə dil tapmaq üçün dildən başqa da nəyisə bilmək lazımdır.**

**Qocalar nə vaxtsa cavan olduqları üçün cavanları bağışlayırlar. Cavanlar niyə bağışlasınlar ki?**

**Niyə çox adam, bilmədiyi şeylərdən danışmağı xoşlayır?**

**Bəzilərinə elə gəlir ki, adamı varsa, adamlığı olmasa da olar.**

**Havayıdı deyə dəqiqəbaşı cin atına minməliyəm?**

**Nə qədər soyuq olsa da, heç olmasa arabir papağı qabağına qoyub yaxşı-yaxşı fikirləşmək lazımdır.**

**Yaxşılıq qanmayan adama yaxşılıq etmək başa düşmədiyi xarici dildə nəyi isə anlatmağa bənzəyir.**

**Müxalifət az qala pis müxalifət olmasının səbəbini də iqtidarda görür.**

**Cəhənnəmə hər yerdən, hətta bu dəqiqə olduğumuz yerdən də yol var.**

**Ən dayanıqlı yol cəhənnəmə gedən yoldur. Heç vaxt dağılmır.**

**Məni düz yola indi ən çox nəvələrim çəkir.**

**Bəziləri ilə rastlaşanda istər-istəməz fikirləşirəm: görəsən qazdığı axırıncı quyunun dərinliyi nə qədərdir?**

**Ermənilər ağıllarını başına yığmırsa, deməli ya başları yoxdur, ya da ağılları.**

**İgid ki, qorxaqdan dərhal seçilmədi, o, igid deyil.**

**Haqqın yerini tutması üçün əvvəlcə nahaqqın yerində otuzdurulması gərəkdir.**

**Lap baha başa gəlsə də, "Tarix-Nadir"i heç olmasa yarıyacan təzədən çap etmək lazımdır. Çox adam onu yarıyacan da oxumayıb.**

**Zaman heç kimə və heç nəyə tabe olmur.**

**Ağıllı olduğunu düşünmə, ağıllı düşün.**

**Könülsüz çıxdığın yolda könlünə nə yatar ki?**

**Xəsislərin hamısı qənaətcildir, qənaətcillərin hamısı xəsis deyil.**

**Adam var yuxarı özü çıxır, adam var çıxarırlar. Yuxarıdan isə özü düşən az olur. Adətən düşürürlər.**

**Məğlubiyyətdən dərs çıxartmadan, qələbə qazanmaq mümkün deyil.**

**Gördüyün işin vacibliyinə inanmaq işi daha tez və keyfiyyətlə görməyə imkan verir.**

**Günahlarımızla insanlığı öldürürük...**

**Əlindən yaxşılıq gəlirsə, insanlıq naminə ancaq yaxşılıq elə, pislik gəlirsə, insanlıq naminə pislik eləmə.**

**Paxıllıq qorxulu xəstəlikdir. Xoşbəxt olmaq istəyirsinizsə, paxıllığı özünüzə yaxın buraxmayın.**

**Ailənizi, qohumlarınızı, dostlarınızı, həmkarlarınızı... sevməyə çalışın. Onda görərsiniz ki, yaşamaq necə də gözəldir.**

**Hər birimiz başqalarında nə qədər desən, səhv tapa bilirik. Özümüzə gələndə isə, səhv yox, səhvlərimizə haqq qazandıra biləcək bəhanələr axtarmağa çalışırıq.**

**Addım atmamışdan əvvəl düşünün. Yoxsa atandan sonra düşünməyinizin faydası olmaz.**

**Gözünüzə xoşbəxt görünənlərin çoxu doğrudan xoşbəxtdir? Mən xoşbəxtlikdən başqa, hər şeyi olan o qədər bədbəxt tanıyıram ki! Xoşbəxt olmaq istəyirsinizsə, çox az şeylə də xoşbəxt ola biləcəyinizə inanın və bu inam sizi həqiqətən xoşbəxt edəcək.**

**Yaxşı yol yoldaşı olduğumu düşünmürəm. Belədirsə, cəhənnəmə doğru istiqamət götürən çox adam niyə mənə yoldaş gözü ilə baxır?**

**Çiynini gücü çatmayan işlərin altına verənlərin öz çiyinlərindən çox, adətən başqalarının başı ağrıyır.**

**Həmişə yaxşılıq etdiyim adamlar məndən ancaq yaxşılıq gözləyir və bunda qəbahətli heç nə yoxdur. Amma, mənə həmişə pislik edən adamlar da məndən yalnız yaxşılıq gözləyirlər. Bax, bunu başa düşmürəm.**

**Düşmənlərinizdən heç vaxt qorxmayın. Onlar sizin bütün zəif cəhətlərinizi bilmirlər. Bilsəydilər, çoxdan sizə qarşı istifadə edərdilər. Qaldı düşmən hesab etmədikləriniz...**

**Qorxaqlar ən qorxulu adamlardır.**

**Pis işi düzgün etməkdənsə, düzgün işi pis etmək daha yaxşıdır.**

**Allahdan başqa heç kəsdən yaxşılıq gözləmədim. Elə ona görə heç vaxt nəyisə gözləyə-gözləyə qalmamışam.**

**Güclə hər şeyi həll etməyin mümkünlüyünə inananlar ağılsız, ağılla çox şeyi həll etməyin mümkünlüyünə inananlar nikbin adamlardır.**

**Uğura gedən yol həmin yolu tapmaqdan başlayır.**

**Düşünmürəm ki, məni səhərlər saatın zəngi oyadır. Elə buna görə oyanan kimi, ilk növbədə Allahıma şükür edirəm.**

**Qəlbində mərhəmət hissi olmayan heç heyvan da deyil.**

**Tez-tez məyus oluram. Məni məyus edən şeylər kimlərisə məyus etmirsə, ya mən çox dala qalmışam, ya da başqaları çox irəli gediblər.**

**Qəhrəmanlıq tələb olunan yerdə nəzakət qaydalarını gözləməsən də olar.**

**Rahat yatmaq istəyirsinizsə, kreditlə heç nə götürməyin.**

**Paxıl, xəbis adamların da bədənlərinin 90 faizi sudan ibarətdir? İnanmıram. Su natəmizlik götürmür axı?**

*Rasif TAHİROV*

## "AL JAZEERA" TELEKANALI BAKI LİMANI HAQQINDA VİDEOMATERİAL HAZIRLAYIB

***"Əl Cəzirə" (Al Jazeera Arabic) telekanalının hazırladığı videomaterialda bildirilir ki, Azərbaycanda həyata keçirilən böyük investisiya layihələri bu ölkədə neft-qaz sektoruna alternativ layihələrdir.***

Kanalın hazırladığı videomaterialda Ələt qəsəbəsində yaradılan yeni Bakı Limanı və onun ətrafında yerləşəcək Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zona barədə məlumat verən limanın baş direktorunun müşaviri Zaur Həsənov bildirib ki, Azərbaycanın Xəzər dənizi sahilində, dəmir yollarının və su yollarının kəsişdiyi yerdə yerləşməsi, onu Asiya və Avropanı birləşdirən bir mərkəzə çevirir.

Bakı Limanının hazırkı fəaliyyəti və gələcək perspektivləri, onun inkişaf konsepsiyası, infrastrukturu, o cümlədən liman ətrafında yaradılan Azad Ticarət Zonası (ATZ) barəsində danışan Zaur Həsənov layihənin strateji-iqtisadi əhəmiyyətə malik olduğunu söyləyib. O deyib: "Bakı Limanı Qazaxıstandan Avropaya, Rusiyadan İrana olmaqla iki mühüm nəqliyyat dəhlizinin kəsişməsində yerləşir. Gələcəkdə limanda yükaşırmaları il ərzində 25 milyon ton təşkil edəcək və bir milyona yaxın konteyner daşınması mümkün olacaq. Limanın birinci fazasının tikintisi 2017-ci ilə qədər tamamlanacaq və yükaşırma qabiliyyəti 11,5 milyon tona çatdırılacaq. Yüklərin böyük hissəsi Çin, Mərkəzi Asiya və Avropa arasında daşınacaq. Bakı Limanın "Şərq-Qərb" və Şimal-Cənub dəhlizləri üzərində mühüm nəqliyyat-logistika qovşağı (hub) olacaq. Azərbaycan Avropa və Asiyanı birləşdirəcək, geniş beynəlxalq logistika şəbəkəsinin bir hissəsinə çevriləcək və bununla tarixi İpək yolunun yenidən canlanmasına öz töhfəsini verəcək", - deyə Z.Həsənov vurğulayıb.

Z.Həsənov sentyabrın 7-də tanınmış "DP World" şirkəti ilə məsləhətçi qismində müqavilənin imzalandığını da qeyd edib.

Videomaterialda daha bir layihə - təxminən 3 il müddətində yekunlaşacaq "Ağ şəhər" layihəsi barədədir. Bakıda həyata keçirilən bu layihə müasir yaşayış evləri, otellər, istirahət mərkəzləri, alış-veriş və biznes mərkəzlərindən ibarət olacaq. Bu layihə körfəz ölkələrindən və başqa ölkələrdən turistlərin Azərbaycana cəlb olunmasına xidmət edəcək.



## Balinaların bir-biri ilə yeni ünsiyyət üsulu aşkarlanıb

***Avstraliya universitetlərinin alimləri müəyyənləşdiriblər ki, donqar balinalar su səthinə etdikləri zərbələr vasitəsilə bir-biri ilə ünsiyyət qururlar.***

Donqar balinalar tez-tez suyun səthinə çıxaraq, kürəkləri və ya quyruq üzgəcləri ilə suya güclü zərbələr endirirlər. Alimlər tədqiqat zamanı 94 qrup balinanın davranışını müşahidə ediblər. Müşahidələr əsasında ehtimal olunur ki, kürəklər və quyruq üzgəcləri ilə suyun səthinə zərbə vurmaq digər balinalarla ünsiyyət saxlamaq vasitəsidir. Balinalardan ibarət qrup dörd kilometrdən uzaq məsafədə olduqda bu hərəkətlərin tezliyi aşağı düşür.

Alimlərin fikrincə, bu cür ünsiyyət vasitəsilə uzaqdakı balinalar qrupu ilə də əlaqə yaratmaq mümkündür.

## İLK DRON-POÇTALYON POÇT BAĞLAMASINI LAZIMİ ÜNVANA ÇATDIRIB



***Çexiyanın ən iri internet-mağazası ilk dəfə olaraq poçt bağlamasının pilotsuz uçuş qurğusu ilə ünvana çatdırılmasını təşkil edib.***

Kiçikölçülü dron təxminən 1,7 kilometr məsafə qət edərək poçt bağlamasını Praqanın şərq rayonundakı İrna qəsəbəsində yerləşən Mall.cz anbar kompleksindən Zeleneçedə yaşayan sifarişçinin evinə çatdırıb. Təyinat məntəqəsinə 3 dəqiqəyə çatmış kvadrokopter sifarişçinin evinin qarşısında yerə enərək içərisində uşaq oyuncaqları olan bağlamanı boşaldıb. Test tənzimləmə rejimində bu tapşırığın yerinə yetirilməsini Çexiya Mülki Aviasiya İdarəsi müşahidə edib.

Mall.cz internet-mağazası bir müddət bundan əvvəl xəbər vermişdi ki, dronlardan istifadə edilməsi hər birinin çəkisi 2 kiloqrama qədər olan yüklərin çatdırılmasını sürətləndirər və müvafiq xərclər azalardı. Qeyd edək ki, bütün sifarişlərin 80 faizi məhz bu cür yüklərdən ibarətdir

## Artıq içiləndə dərd verir su da...

**London Kral Kolleci hospitalının mütəxəssisləri xəbərdar edirlər ki, çoxlu su içmək olmaz.**

"Daily Mail" nəşri xəbər verir ki, artıq maye sağlamlıq üçün təhlükəlidir. Bunun üçün uroloqun tövsiyəsi ilə çoxlu (hər 30 dəqiqədə 200 millilitr) su içən 59 yaşlı qadının başına gələn hadisə nümunə gətirilir.

Sidik sistemini "yumaq" istəyən qadın qanda duzun təhlükəli səviyyəsi ilə (qanda duzun anormal aşağı səviyyəsi qeydə alınan ölüm göstəriciləri təqribən 30 faizdir) xəstəxanaya çatdırılıb. Onda ürəkbulanma, qusma və başağrısı qeydə alınıb. Nəticədə koma və hətta ölüm ola bilərdi.

Belə olan hallarda, həkimlər adətən gündə yalnız bir litr su içməyi tövsiyə edirlər. Yeri gəlmişkən, MDMA qəbul edən və ya dözümlülüyü artırmaq üçün ciddi məşq edən adamların qanının tərkibində də duzların səviyyəsinin anormal dərəcədə aşağı olması müşahidə edilir.

Maraqlıdır ki, su içmək üçün dəqiq tövsiyə yoxdur və ola da bilməz, axı tələbat fərdidir. Orqanizmin suya tələbatının yeganə göstəricisi susuzluqdur.

## SƏHƏRLƏR PİS ƏHVALİ-RUHİYYƏNİN SƏBƏBLƏRİ BƏLLİ OLUB

***Londonun Universitet Kollecinin mütəxəssisləri səhərlər insanlarda müşahidə olunan pis əhvali-ruhiyyənin səbəblərini araşdırıblar. Məlum olub ki, xoş əhvali-ruhiyyə və gümrahlığın təminatı bizim neçə saat yuxuda olmağımız deyil, hansı vəziyyətdə yatmağımızdır.***

"Mir 24" saytı xəbər verir ki, könüllülər arasında aparılan tədqiqatlar sol yanı üstə və ən əsası çarpayının sol tərəfində yatanların səhərlər daha dincəlmiş və gümrah oyandıqlarını göstərib.

Məlum olub ki, embrion formasında, yəni yanı üstə, ayaqları dizdən bükülmüş və özünə tərəf çəkilmiş halda yatanlar daha tez - təxmini 10-15 dəqiqəyə yuxuya gedirlər. Məhz belə "qapalı" vəziyyət bədəni maksimal hərəkətsiz və yüksək hərarətdə saxlayır ki, bu da daha dərin yuxuya səbəb olur.



Bundan əlavə, alimlər üzüstə yatmağın sağlamlığa ziyan verdiyini bildiriblər. Belə vəziyyətdə yatanlar başlarını yana çevirirlər ki, bu da onurğa arteriyalarının sıxılmasına səbəb olur. Bu hal beynin qan dövranının pozulması ilə yanaşı, döş qəfəsinə təzyiqi də artırır.

Gənc nəslin kürəküstə yatmadığını söyləyən alimlər bu vəziyyətin yaşlı nəsil arasında daha çox yayıldığını bildiriblər. Bununla yanaşı, mütəxəssislər kürəküstə yatmağın üz dərisi üçün faydalı olduğunu, ürəyin funksiyasının tənzimlənməsinə, əzələlərin gərginliyinin aradan qaldırılmasına kömək etdiyini söyləyirlər.

*Günel Məlikova*



## Su ilə işləyən ilk kompüter

**ABŞ mühəndisləri elektrik əvəzinə su ilə işləyən kompüter ixtira ediblər.**

globalscience.ru saytı xəbər verir ki, burada kompüterin işləməsi üçün suyun çəkisi əsas götürülür, elektrik enerjisindən istifadəyə ehtiyac qalmır. Kompüterin iş prinsipi elektromaqnit dalğalarının təsiri nəticəsində su damcılarının hərəkətinə əsaslanır. Qurğu hələ ki, məhdud imkanlara malikdir və ilkin mərhələdə yalnız texniki xarakterli sadə əmrləri yerinə yetirəcək.

Alimlər bildirirlər ki, bir il sonra onlar kompüterləşdirmə sahəsinin ən ciddi tələblərinə uyğun olan yeni layihə təqdim etməyə hazırlaşırlar. Gələcəkdə "su kompüterlərindən" istifadə ekologiya problemlərini minimuma endirməyə imkan verəcək.

## ÖMRÜNÜZÜ 20 İL UZATMAQ İSTƏYİRSİNİZSƏ...



***Alimlər artıq çoxdandır bəzi insanların orta statistik adamdan çox yaşamasının sirrindən baş çıxarmağa çalışırlar.***

Stenford Universitetinin alimləri müəyyən ediblər ki, rasionunda müəyyən məhsullar olan insanların ömrü 20 il uzana bilər.

"informing.ru" saytı xəbər verir ki, alimlərin yeni araşdırmasında 40 yaşından başlayan yaş qrupundan olan 11 min kişi və qadın iştirak edib. Onlar hər gün yediklərini təsvir etmək üçün gündəlik tutublar.

Alimlər araşdırmanın nəticələrini təhlil edəndən sonra müəyyən ediblər ki, ölüm hallarının çoxuna yanlış qidalanma səbəb olub. Həmçinin onlar aydınlaşdırıblar ki, meyvə-tərəvəz, qoz-fındıq yeyən adamlar özlərini pis hiss etməkdən az şikayət ediblər və 20 il çox yaşayıblar.

Alimlər əmindirlər ki, meyvə-tərəvəz, qoz-fındıq insanın ömrünü uzadır, çünki bu məhsullar ürək-damar sisteminin fəaliyyətini yaxşılaşdırır və bütövlükdə orqanizmə müsbət təsir göstərir.

Onu da qeyd edək ki, tədqiqatda əvvəllər insult və ya ürək tutması keçirmiş insanlar iştirak ediblər. Tədqiqatçılar əvvəllər xəstə olmuş adamları məxsusi olaraq seçmişlər ki, qidalanma ilə sağlamlığın əlaqəsi haqqında daha dəqiq məlumat ala bilsinlər.

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo üzrə turnirə yekun vurulub



***Sumqayıt Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo üzrə beşinci respublika turniri təşkil edilib.***

Yarış Azərbaycan Cüdo Federasiyası və Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilib.

Turnirdə Bakı və bölgələrdən olan cüdoçularla yanaşı, Rusiyanın Nalçik və Dərbənd şəhərlərinin yeniyetmə idmançıları da mübarizə aparıblar.

Otuz səkkiz komandadan 335 cüdoçunun qatıldığı çempionat iki gün davam edib.

Sonda qaliblər mükafat və fəxri diplomlarla təltif olunublar.

## Bakıda keçiriləcək Formula-1 yarışının tarixi və adı dəyişdirilib



***Vyanada Beynəlxalq Avtomobil Federasiyasının (FİA) Avtoidman üzrə Ümumdünya Şurasının növbəti iclası keçirilib. İclasda gələnilki mövsümün təqvimi təsdiq olunub.***

f-1.az saytı xəbər verir ki, təqvimin açıqlanmasını səbirsizliklə gözləyən ölkələrdən biri də Azərbaycan olub. Çünki builki yarış 24 saatlıq Le Man marafonu ilə eyni həftəsonunda təşkil olunmuşdu və bu, azarkeş sayına təsir göstərmişdi. Növbəti mövsümün ilkin təqvimində də Bakı mərhələsinin iyunun 18-də təşkil olunacağı bildirilmişdi və bu yenə Le Mandakı yarışla üst-üstə düşmək demək idi.

Təsdiqlənən yeni təqvim ölkəmiz üçün qənaətbəxş sayıla bilər. Bakıdakı yarış ilkin təqvimdə açıqlanan vaxtdan bir həftə sonra – iyunun 25-də baş tutacaq. Buna təsir edən amillərdən biri də Almaniya Qran-prisinin təqvimdən çıxarılması olub.

Daha bir əlamətdar hadisə isə yarışımızın adının dəyişdirilməsidir. Debüt ilində Avropa Qran-prisi adlandırılan yarış gələn ildən Azərbaycan Qran-prisi kim tanınacaq.

Mövsüm 20 yarışdan ibarət olacaq. Yarış martın 26-da Avstraliyada başlayıb, noyabrın 26-da Əbu-Dabidə başa çatacaq.



## KARATE ÜZRƏ RESPUBLİKA ÇEMPİONATININ QALİBLƏRİ MÜƏYYƏNLƏŞİB

***Yeniyetmə və gənclər arasında 17-ci, böyüklərin isə karate üzrə 24-cü respublika çempionatının qalibləri məlum olub.***

"Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilmiş yarışda paytaxt və müxtəlif regionlardan 41 klubu təmsil edən 430 idmançı iştirak edib.

Kumite üzrə 14-15 yaşlı yeniyetmələrin yarışında Fərid Ağayev (52 kq), Rəşid Həqiqətli (57 kq), Tural Yaqubov (63 kq), Fərid Şahbazlı (70 kq), Məmməd Məmmədov (70 kq-dan yuxarı), eləcə də Mədinə Sadıqova (47 kq), Ayla Rzazadə (54 kq), Səma İmanzadə (54 kq-dan yuxarı), kata yarışlarında isə Ceyhun İsmayılov və Emiliya Mitlinova çempion olublar.

16-17 yaşlı gənclərin kumite yarışlarında Həsən Əliyev (55 kq), Hümmət Baxşəliyev (61 kq), Ruslan Əhmədov (68 kq), Murad Balakişiyev (76 kq), Murad Hacızadə (76 kq-dan yuxarı), qızlar arasında Fidan Teymurova (48 kq), İnci Əzizova (53 kq), Telli Əliyeva (59 kq), Bəsti İsmayılova (59 kq-dan yuxarı), həmçinin fərdi katada Kənan Mirpənah birinci olublar.

Gənclərin 18-20 yaş qrupunda Hüseyn Əliyev (60 kq), Sərdar Məmmədov (67 kq), Vüsal Kamallı (75 kq), Elman Babayev (84 kq), Sərxan Quluzadə (84 kq-dan yuxarı), qızların mübarizəsində Asiya Məlikova (50 kq), Aytac Əliyeva (55 kq), Ramilə Məmmədova (61 kq), Fəridə Əliyeva (68 kq-dan yuxarı), kata yarışlarında isə Roman Heydərov və Həsən Rüstəmov qızıl medal qazanıblar.

Böyüklər arasında isə Firdovsi Fərzəliyev (60 kq), Tural Ağalarzadə (hər ikisi 67 kq), Məcid Əmirov (75 kq), Ayxan Mamayev (84 kq), Əli Cəfərov (84 kq-dan yuxarı), həmçinin Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), Fəridə Abiyeva (61 kq), Fəridə Əliyeva (68 kq-dan yuxarı), katada isə Roman Heydərov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Ümumi komanda hesabında "Qara Qaplan", Mərkəzi Karate Məktəbi və "Çempion" İdman klublarının yetirmələri ilk üçlükdə qərarlaşıblar. Yarışın mükafatçıları milli komandanın heyətinə cəlb olunaraq təlim-məşqlərə qatılacaqlar.

Yeniyetmə və gənc karateçilər fevralda ilk rəsmi yarışa - Sofiyada keçiriləcək Avropa çempionatına qatılacaqlar. Böyüklər isə yanvarın 22-24-də Parisdə təşkil ediləcək Karate1 Premyer Liqa turnirində mükafatlar uğrunda yarışacaqlar.

## GÜLƏŞÇİLƏRİMİZ DOQQUZ İL ƏRZİNDƏ "QIZIL QRAN-PRİ"DƏ 63 QIZIL, 49 GÜMÜŞ, 80 BÜRÜNC MEDAL QAZANIBLAR

***Son illər idman ölkəsinə çevrilən Azərbaycanın paytaxtı Bakı bu yaxınlarda daha bir mötəbər beynəlxalq yarışa ev sahibliyi etdi. Sayca doqquzuncu dəfə keçirilən və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan güləş üzrə "Qızıl Qran-pri" beynəlxalq turnirinin final mərhələsinin təşkili artıq ənənə halını alıb. Budəfəki yarışı digərlərindən fərqləndirən isə iştirakçı ölkələrin sayının çox olması idi. Belə ki, bu yarışda iştirak etmək üçün 50-dən çox ölkədən 700-dək güləşçi Azərbaycana gəlmişdi.***




Güləş üzrə ölkə yığma komandalarımız həmişə olduğu kimi, bu dəfə də inamlı çıxışları ilə yadda qaldı. Belə ki, güləşin hər üç növü üzrə yığma komandalarımız 7 qızıl, 3 gümüş və 7 bürünc medal əldə etməklə komandamızın aktivinə ümumilikdə 17 medal qazandırıb.

Yarışın birinci günündə mübarizə aparan sərbəst güləşçilərimiz 3 qızıl, 1 gümüş və 3 bürünc medal olmaqla 7 medal qazanıblar. Baş məşqçi əvəzi Firdovsi Umudovun rəhbərliyi ilə məşqçilər korpusunun əsasən gənc güləşçilərə şans verdiyini nəzərə alsaq, nəticəni qənaətbəxş hesab etmək olar. Qızıl medalları yığmamıza Giorgi Edişeraşvili (57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq) və Cəbrayıl Həsənov (74 kq) qazandırıblar. Yalnız final görüşündə uduzan Gitinomaqomed Hacıyev (70 kq) gümüş medalla kifayətlənib. Bürünc medallar isə Coşqun Əzimov (65 kq), Murad Süleymanov (74 kq) və Aslanbek Alborovun (97 kq) payına düşüb.

Yarışın ikinci günündə mübarizəyə qoşulan qadın güləşçilərimiz turniri 1 gümüş və 2 bürünc medalla tamamlayıblar. Baş məşqçi Semyon Çterevin rəhbərlik etdiyi məşqçilər korpusu da heyətə daha çox gənc güləşçiləri daxil etmişdi. Qadın güləşçilərimizdən Tatyana Omelçenko (60 kq) finala qədər inamla güləşib. Ancaq final görüşündə Ukrayna təmsilçisinə uduzub və gümüş medalla kifayətlənib. Bürünc medalları yığmamıza Anjela Doroqan (53 kq) və Alyona Kolesnik (55 kq) qazandırıblar. Yığma komandamızın üzvlərindən Elmira Qəmbərova (63 kq) və Elis Manolova (69 kq) isə bürünc medal uğrunda görüşləri uduzaraq 5-ci yerdə qərarlaşıblar.

Mötəbər turnirin sonuncu günündə isə yunan-Roma güləşçiləri arasında qaliblər müəyyənləşib. Baş məşqçi əvəzi Akif Əliyevin rəhbərlik etdiyi məşqçilər korpusunun heyətə daxil etdiyi güləşçilərimiz 7 medal - 4 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Qızıl medallara Həsən Əliyev (71 kq), Rafiq Hüseynov (80 kq), İslam Abbasov (85 kq) və Oyan Nəzəriani (130 kq) sahib olublar. Yalnız final görüşündə uduzan Elvin Mürsəliyev (75 kq) gümüş medalla kifayətlənib. Bürünc medallar isə Rövşən Tağıyev (66 kq) və Soltan İsmayılovun (85 kq) payına düşüb.

Ümumilikdə doqquz ilin yekunlarına görə, sərbəst güləşçilərimizin qazandıqları medalların sayı 86-ya çatıb. Onlardan 26-sı qızıl, 23-ü gümüş, 37-si isə bürüncdür. Qadın güləşçilərimiz 9 qızıl, 7 gümüş və 15 bürünc olmaqla ümumilikdə 31 medal qazanıblar. Yunan-Roma güləşçilərimizin isə bu müddətdə qazandıqları medalların sayı 75-ə çatıb. Onlardan 28-i qızıl, 19-u gümüş, 28-i isə bürünc əyarlıdır.

Ötən illərdə keçirilən ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə "Qızıl Qran-pri" beynəlxalq turnirinin final mərhələsinin nəticələrinə baxdıqda görürük ki, 2008-ci ildə 22 medal, 2009-cu ildə 20 medal, 2010-cu ildə 15 medal, 2011-ci ildə 26 medal, 2012-ci ildə 22 medal, 2013-cü ildə 24 medal, 2014-cü ildə 25 medal, 2015-ci ildə isə 21 medal qazanılıb. Bu il də daxil olmaqla qazanılan ümumi medalların sayı 192-dir ki, bunun da 63-ü qızıl, 49-u gümüş, 80-i isə bürünc əyarlıdır.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI



***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 601 saylı sərəncamına müvafiq olaraq:***

**I . Elmlər doktoru hazırlığı üzrə dissertanturaya aşağıdakı ixtisaslara qəbul elan edir:**

**1. 3319.03 – "Gəmiqayırma və gəmi təmiri texnologiyası" - 1 yer (odənişli )**

**2. 3319.02 - "Gəmiçilik və su nəqliyyatının istismarı" - 1 yer (odənişli )**

**II. Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya aşağıdakı ixtisaslara qəbul elan edir:**

| | | |
|---|---|---|
| **1.** | **3319.03** | **– "Gəmiqayırma və gəmi təmiri texnologiyası"<br>doktoranturaya - 2 yer (1 yer – ödənişli əsaslarla)<br>dissertanturaya - 1 yer** |
| **2.** | **3319.01** | **– "Gəmiçilik texnikası"<br>doktoranturaya -1 yer<br>dissertanturaya -1 yer** |
| **3.** | **3319.02** | **– "Gəmiçilik və su nəqliyyatının istismarı"<br>doktoranturaya -1 yer** |

Doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun olaraq həyata keçirilir.

**1. Doktorantura və dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.**

**2. Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

- *ərizə (Azərbaycan Dövlət Dəniz Akademiyasının rektorunun adına);*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə)*
- *iş yerindən xasiyyətnamə (işləyənlər üçün);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı (forma 2.4) və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq (notarial) qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası və xarici ölkə vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti*

Doktoranturaya fəlsəfə doktoru proqramı üzrə qəbul olunmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Dissertanturaya qəbul olunmaq istəyənlərlə müsabiqə keçirilir.

Dissertant kimi təhkim olunmaq istəyən şəxslər, bir qayda olaraq, elmi və elmi-pedaqoji iş stajına malik olmalıdırlar.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi olan və buna uyğun diplomun müvafiq (notarial) qaydada təsdiq edilmiş surətini təqdim edən Azərbaycan Respublikasının vətəndaşları qəbul olunur. Həmin şəxslərlə müsahibə keçirilir.

**Sənədlər 28 dekabr 2016-cı il tarixədək Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 18 ünvanında yerləşən Azərbaycan Dövlət Dəniz Akademiyasının əsas binasında (207-ci otaqda) qəbul olunur.**

***Tel.:(012) 493-36-44 (113), (012) 493-63-07***

***REKTORLUQ***







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3495